Bu bir xalq qəzetidi
ƏDALƏT

## Milli Məclisin sədri media nümayəndələri ilə görüşüb



**Milli Məclisin sədri Sahibə Qafarova ötən gün parlamentin iclasından sonra ali qanunvericilik orqanının fəaliyyətini işıqlandıran media nümayəndələri ilə görüşüb.**

Sahibə Qafarova jurnalistləri Novruz Bayramı münasibətilə təbrik edərək, onlara gələcək peşəkar fəaliyyətlərində uğurlar arzulayıb. Parlament-media münasibətləri barədə fikirlərini bölüşən Sahibə Qafarova ölkəmizin son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığı uğurlarından, Vətən müharibəsindəki Zəfərindən, parlamentdə gələcəkdə görüləcək işlərdən, ölkə rəhbərliyi tərəfindən mediaya göstərilən diqqətdən danışıb. Görüşdə çıxış edən parlamentdə akkreditə olunmuş jurnalistlər Milli Məclisin sədrini Novruz Bayramı münasibətilə təbrik edərək, pandemiya dövründə onların fəaliyyəti üçün yaradılmış şəraitə görə təşəkkürlərini bildiriblər. Jurnalistlər ali qanunvericilik orqanının fəaliyyətini, ölkənin ictimai-siyasi həyatındakı rolunu yüksək qiymətləndirib, parlamentin işinin işıqlandırılması barədə fikirlərini bölüşüblər. Həmçinin Milli Məclisin sədrinə, deputatlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

## Conson: "Putin bu asılılığımızdan həzz alır"



**Rusiya neftindən və qazından digər ölkələrin imtina etməsi çətin olacaq, lakin şantajdan qaçmaq üçün hamı bunu etməlidir.**

Adalet.az xəbər verir ki, bunu Britaniya Baş naziri Boris Conson deyib.

"Bombaların düşdüyü vaxtda neft və qazın qiyməti qalxırsa, bu o deməkdir ki, sizin cibiniz boş, Putininki isə doludur. Biz belə ruhda davam edə bilmərik. Nə qədər ki, Qərb iqtisadi cəhətdən Putindən asılıdır, o da bu asılılıqdan həzz almaq üçün əlindən gələni edəcək. Məhz buna görə də bu asılılıq dayandırılmalıdır və dayandırılacaq", - Conson bildirib.

## Lavrov: «Ukraynada Rusiyanı təhdid edən silah ola bilməz»



**"Ukrayna ərazisində Rusiyanı təhdid edən silah ola bilməz".**

Adalet.az xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov RBK-ya müsahibəsində deyib. "Ukrayna ərazisində Rusiyanı təhdid edən silah olmamalıdır. Biz gələcəkdə hansı silahların Ukraynada ola biləcəyini razılaşdıra bilərik. Bu, bizim üçün prinsipial məsələdir", - Rusiya XİN başçısı vurğulayıb.

## Azərbaycanda əhalinin 12 faizi pensiyaçıdır

**2022-ci il yanvarın 1-i vəziyyətinə Dövlət Sosial Müdafiə Fondunda 1200,5 min (ötən ilin yanvarın 1-i vəziyyətinə 1228,8 min) pensiyaçı qeydiyyatda olub.**

Dövlət Statistika Komitəsindən Adalet.az-a verilən məlumata görə, bu da ölkə əhalisinin 12,0 faizini təşkil edir. Onların 58,9 faizi yaşa, 28,9 faizi əlilliyə, 12,2 faizi isə ailə başçısını itirməyə görə pensiya alır.



Təyin olunmuş aylıq pensiyaların orta məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,8 faiz artaraq 331,8 manat təşkil edib və orta aylıq əmək haqqının 45,3 faizinə bərabər olub.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda edilmiş müvafiq dəyişikliyə əsasən əmək pensiyasının minimum məbləği 20 faiz artırılaraq 2022-ci ilin 1 yanvar tarixindən 240 manat müəyyən olunub.

**Ölkədə pensiyaçıların sosial müdafiəsini daha da gücləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 2022-ci ilin 1 yanvar tarixindən orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq bütün növ əmək pensiyalarının sığorta hissəsi indeksləşdirilərək artırılıb, qulluq stajına görə əlavələr alan əmək pensiyaçıları istisna olmaqla digər əmək pensiyaçılarına 2022-ci il üzrə 200 manat məbləğində maddi yardım, qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına isə 2022-ci ildə aylıq əmək pensiyasının 10 faizi məbləğində aylıq maddi yardım təyin olunub.**

## Qubadlıda Ermənistana yük aparan İran vətəndaşı saxlanıldı



**Dövlət Gömrük Komtəsinin Cənub Ərazi Baş Gömrük İdarəsinin "Qubadlı" gömrük postunda Azərbaycan ərazisindən tranzit keçməklə İrandan Ermənistana yük aparan qonşu ölkə vətəndaşının idarə etdiyi "Mercedes Benz Axor" markalı yük nəqliyyat vasitəsi gömrük nəzarəti zamanı saxlanılıb.**

Komitədən Adalet.az-a verilən məlumata görə, sürücüdən avtomobildə gömrük nəzarətindən gizlədilən, gömrük nəzarətinə mütləq bəyan edilməli olan hər hansı predmetlərin, o cümlədən narkotik və psixotrop maddələrin olub-olmaması soruşulub.

Məlumata görə, sürücü idarə etdiyi avtomobildə mütləq bəyan edilməli və gömrük nəzarətindən gizlədilmiş heç bir predmetin olmadığını bildirib. Bundan sonra avtomobil əsaslı yoxlanılıb və yük nəqliyyat vasitəsinin kabinində gizlədilən 4,017 qram narkotik vasitə - həşiş qətranı, 8 ədəd üzərində "ddp/M20" nişanəsi olan metadon həbləri, üzərində "Alprazolam 1mg" yazısı olan konvalyut kəsiyində 2 ədəd həb və 30,132 qram narkotik vasitə - tiryək aşkar edilib. Faktla bağlı araşdırma aparılır.

Xatırladaq ki, metadon "Dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələ""in II Siyahısına daxildir və 8 ədəd həbdə metadonun təsir maddəsinin ümumi miqdarı 0,16 qram təşkil edir. Alprazolam isə "Dövriyyəsinə nəzarət edilən psixotrop maddələr"in III Siyahısına daxildir və 2 ədəd həbdə alprazolamın təsir maddəsinin ümumi miqdarı 0,002 qram təşkil edir.

Bu bir xalq qəzetidi
www.adalet.az
# ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 12 (5949) 17 mart 2022-ci il | Qiyməti 30 qəpik

## Rüstəm İbrahimbəyov dəfn olunub



**Martın 16-da saat 12:00-da Nizami Kino Mərkəzində mərhum Xalq yazıçısı Rüstəm İbrahimbəyovla vida mərasimi keçirilib.**

Adalet.az xəbər verir ki, vida mərasimindən sonra R.İbrahimbəyovun nəşi Birinci Fəxri xiyabana gətirilib. Mərhum burada öz qardaşı, görkəmli yazıçı və kinorejissor Maqsud İbrahimbəyovun məzarının yaxınlığında dəfn edilib. Qeyd edək ki, Rüstəm İbrahimbəyov martın 10-dan 11-nə keçən gecə Moskvada vəfat edib və martın 13-də onunla Moskvada vida mərasimi keçirilib.

# Dövlətə xəyanətdə şübhəli yaxalandı



Bax:səh-2

## MOSKVA TELEVİZİYASININ BAŞINDAN BÖYÜK QƏLƏTİ

*Rusiya kanallarının, solovyovların, simonyanların və nə bilim daha hansı kərtənkələlərin bizə qarşı şər-şəbədələrinin çox şahidi olmuşuq. Müzakirə Afrikanın hansısa bir ölkəsindən gedəndə də çalışırlar ki, ora da bir Qarabağ söhbəti qatsınlar.*

*Bu günlərdə "Rossiya-1" kanalında Rusiya-Ukrayna müharibəsindən danışırlar, aparıcıların adı yadımda deyil, at ilxısı köpək sürüsü, hansının adını yadında saxlayasan. Biri deyir ki, Ərdoğan Qarabağa Suriyadan 2 min terrorçu gətirmişdi, indi onları göndərib Ukraynaya. Əgər Qarabağda hansısa bir muzdlu vuruşubsa, özü də 2 min, niyə biri şəhid olmayıb, biri əsir düşməyib, ya yaralanmayıb? Və necə olur ki, peykdən yerdəki kibrit qutusunun üstünü oxuyan Rusiya həmin muzdluları lentə ala bilməyib? Bizi şərləyirlər, cavab verə bilmirik, elə özümüz yazıb, özümüz də oxuyuruq.*

*Yaxşı olar ki, Müdafiə Nazirliyi belə şər-böhtana ciddi reaksiya versin. 44 günlük müharibədə bütün vuruşanlar da, şəhid olanlar da, qazi olanlar da Azərbaycan gəncləridi.*

## "YAŞAT" şəhid mayorun övladlarını nəzarətə götürdü



**Vətən müharibəsində şəhid olan mayor Rəhim Hüseynovun 40 mərasiminə gedən həyat yoldaşı Günel Ələsgərovanın qəza zamanı həlak olmasından sonra onların üç övladı "YAŞAT" Fondu tərəfindən nəzarətə götürülüb.**

Adalet.az xəbər verir ki, şəhid zabitin övladları Hikmət, Fikrət və Rüfətin adına bankda əmanət hesabı açılıb və depozit yerləşdirilib.

Şəhidimizin övladları 18 yaşına çatdıqdan sonra toplanan məbləği öz hesablarından çıxara biləcəklər. Fonddan bildirilib ki, onlarla bağlı məsələlər hər zaman diqqət mərkəzindədir.

Qeyd edək ki, mayor Rəhim Hüseynov 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Mayor Hüseynov oktyabrın 20-də Qubadlı döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

## Bakıda qadın körpə bacısını diləndirib

**Bakıda polis qadının körpə bacısını diləndirməsi faktını aşkarlayıb. Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Elşad Hacıyev bildirib.**

"Paytaxtın Nizami rayonunda həyat tərzi dilənçilik olan roman mənsubu qadın körpə bacısını diləndirməsi polis tərəfindən aşkarlanıb. Jurnalist həmkarlarımızdan daxil olan məlumat əsasında keçirilən tədbirlərlə körpə küçədən götürülüb, aidiyyəti üzrə təhvil verilib. Müvafiq tədbirlər davam etdirilir. O, bildirib: "Bayramdır ona görə körpə ilə çıxdım ki, daha çox pul yığım. İnsanlar körpəyə daha çox pul verir", - E.Hacıyev qeyd edib.

**Mehman CAVADOĞLU**

## Azərbaycan üçbucağı



***Keçən həftənin sonlarında Azərbaycanla İran arasında hər iki ölkənin həyatında və bütövlükdə regionun gələcək geopolitik durumunda yeni perspektivlər açan tarixi bir razılıq əldə olundu. İqtisadi, ticari və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə dövlət komissiyasının Bakı şəhərində keçirilən növbəti 15-ci iclasında Baş nazirin müavini Şahin Mustafayevlə İranın Yol və Şəhərlərin inkişafı naziri Rüstəm Qasimi yeni bir nəqliyyat dəhlizinin yaradılması haqqında memorandum imzaladılar ki, bunu ölkələrarası münasibətləri həm rəsmi, həm də faktiki olaraq strateji müttəfiqlik səviyyəsinə qaldıran mühüm hadisə saymaq olar. Şərqi Zəngəzur iqtisadi regionuyla Naxçıvan Muxtar Respublikasını birləşdirəcək həmin dəhliz Zəngilan rayonundan İran ərazisi vasitəsiylə Ordubada kimi uzanacaq. Bu məqsədlə Araz çayının hər iki rayonun ərazisindən keçən hissəsində ikisi qatarların, ikisi də avtomobillərin hərəkəti üçün nəzərdə tutulan dörd körpü salınacaq.***

Bax: səh.3

## Kubra Məhərrəmovadan maraqlı status



**Öz pulunla dünyaya uşaq gətirirsən, 9 ay USM, qan analizləri, n- qədər xərc çəkirsən, özəl klinikaya gedirsən, o dəqiqə Səhiyyə Nazirliyi bir post yazır ki, bizim zəhmətimizdir.**

Öz pulunla uşağa müəllim tutub, kursa yazdırırsan, uşaq harasa qəbul olur, Təhsil Nazirliyi gəlib yazır ki, mənim verdiyim təhsilin nəticəsidir. Təbrik edirəm.

Kürəkəni qızın atası yerbəyer edir, obyekt verir, maşın alır qoyur altına, cibinə pul basır, oğlanın anası car çəkir ki, mənim oğlumdu. Həyasız qayınana əlində qalmışıq.

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## EŞŞƏK YARIŞI



*Hər il Qarabağdakı ermənilər Ağdərədə "möhtəşəm" eşşək yarışı keçirirdilər, yəni cıdırı. Hətta xaricdən qonaqlar dəvət edərdilər, televiziya ilə də canlı yayımlayardılar. Dünyada hər bir xalqın özünəməxsus müxtəlif yarışları var. Məsələn, ərəblər dəvə cıdırı keçirirlər, ingilislər, almanlar avtomobil cıdırı və demək olar ki, ruslar da bu avtomobil cıdırına qoşulub, özü də müxtəlif markalı maşınlarla. Türklərdə isə at cıdırı, iki min ildi, bəlkə də çox, mövcuddu. Və təbii ki, bizdə də.*

*Düzdür, son 5 ildə Bakıda formula yarışları keçirilir, dünyanın "avtoxuliqanları" tökülür Bakıya. Amma çox qəribədir ki, bəlkə Bakıdakı avtoxuliqanların sayı başqa ölkələrdəkindən daha çoxdu, lakin bir "avtoxuliqan" yetişdirə bilməmişik.*

Bax: səh.2

## Ukraynada 103 körpə müharibənin qurbanı olub

**Rusiyanın Ukraynaya hərbi müdaxiləsi nəticəsində 103 körpə həlak olub.**

Adalet.az xəbər verir ki, bunu Ukraynanın Baş prokuroru İrina Venediktova söyləyib.

Onun sözlərinə görə, rəqəmlər ölkənin yuvenal xidmətindən alınıb.

## 9-cu siniflərlə bağlı monitorinq keçirildi



**Paytaxtın ümumi təhsil müəssisələrinin IX siniflərinin şagirdləri üçün buraxılış imtahanı fənn bloku üzrə monitorinq təşkil olunub.**

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən Adalet.az-a verilən məlumata görə, İdarə tərəfindən keçirilən monitorinqin əsas məqsədi şagirdlərin təlim nəticələrini təhlil etmək, bu istiqamətdə müvafiq tədbirlər görmək, buraxılış imtahanı fənn bloku üzrə tədris keyfiyyətini daha da artırmaq, məktəb özünüqiymətləndirməsi ənənəsini formalaşdırmaq və onun tətbiqi üçün zəmin yaratmaqdan ibarətdir. Monitorinq zamanı şagirdlərin təlim dili, riyaziyyat, xarici dil fənləri üzrə müvafiq bilikləri yoxlanılıb. Monitorinqin nəticələrinin yaxın günlərdə açıqlanması nəzərdə tutulur.

## Oxucuların nəzərinə

**"Ədalət" qəzetini həftədə 3 dəfə - 2, 4, 6-cı günlər oxuya bilərsiniz.**

## İlaxır çərşənbədə Bakıda 3 nəfər tonqalda yanıb



**Martın 15-də Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına çərşənbə tonqalının üzərindən tullanan zaman yanıq xəsarətləri alan 3 nəfər müraciət edib.**

Bu barədə Adalet.az-a Səhiyyə Nazirliyindən bildirilib. Qeyd edilib ki, onlar müxtəlif yanıq xəsarətləri ilə Yanıq Mərkəzinə aparılıblar.

## GÜNÜN LƏTİFƏSİ

Birinci gün birinci sinif şagirdləri dərsə gəliblər.

Müəllimə başa salır:

**- Uşaqlar siz dərsə gəlmisiz. Dərsdə sakit oturmaq lazımdır. Əgər nə isə soruşmaq istəyirsinizsə, əlinizi qaldırın!**

Bir oğlan əlini qaldırır.

**- Nəsə soruşmaq istəyirsən?**

**- Yox, sadəcə yoxlamaq istəyirəm sistem necə işləyir?**

## Azərbaycan və Niderland arasında siyasi məsləhətləşmələr keçirilib



**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Niderland Krallığının Xarici İşlər Nazirliyi arasında növbəti siyasi məsləhətləşmələr keçirilib.**

Xarici İşlər Nazirliyindən verilən məlumata görə, nümayəndə heyətlərinə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Xələf Xələfov, Niderland tərəfindən isə bu ölkənin Xarici İşlər Nazirliyinin siyasi məsələlər üzrə baş direktoru Thijs van der Plas rəhbərlik ediblər.

Məsləhətləşmələr zamanı 2022-ci ilin aprel ayında Azərbaycan və Niderland arasında diplomatik əlaqələrin yaradılmasının 30 illiyinin qeyd olunacağı, bu müddət ərzidnə ölkələrimiz arasında münasibətlərin bütün sahələrində, o cümlədən siyasi, mədəni, humanitar sahələrdə inkişaf etdiyi bildirilib. Həmçinin, iki ölkə arasında əlaqələrin hazırkı vəziyyəti təhlil olunub və əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılıb. İkitərəfli ticari- iqtisadi əlaqələr üçün geniş potensial imkanların mövcud olduğu qeyd edilib.

Tərəflər iki ölkənin xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin keçirilməsinin əhəmiyyətini vurğulayıb və bu xüsusda, siyasi müstəvidə əməkdaşlığın davam etdirilməsində maraqlı olduqlarını ifadə ediblər.

X.Xələfov qarşı tərəfə 44 günlük Vətən müharibəsi və üçtərəfli bəyanatların imzalanmasından sonra bölgədə mövcud olan vəziyyət, işğaldan azad olunmuş ərazilərdəki dağıntıların miqyası və orada həyata keçirilən bərpa və yenidən quruculuq işləri barədə ətraflı məlumat verib.

Daha sonra tərəflər arasında qarşılıqlı maraq doğuran digər məsələlər, regional və beynəlxalq təhlükəsizlik məsələləri, eyni zamanda Ukraynadakı vəziyyət üzrə fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində X.Xələfov Niderland Krallığı Senatının xarici məsələlər, müdafiə və inkişafa yardım üzrə daimi komitəsinin sədri Ernest Bastiaan von Apeldoorn ilə görüş keçirmiş və iki ölkə arasında əlaqələrin inkişaf perspektivlərinə dair müzakirələr aparmışdır.

## *Fəxrəddin Altun: "Türkiyə İslamofobiya ilə mübarizədə aparıcı rol oynayır"*

**"Avropanın müharibəyə görə ölkəsini tərk etmək məcburiyyətində qalan ukraynalılara qapılarını açdığı halda, suriyalılara, əfqanlara və ya Afrikadan olan qaçqınlara qarşı ayrı-seçkilik göstərməsi ziddiyyət olaraq qarşımızda dayanır. Bu ikili standartın əsas motivasiyasının islamafobiya və irqçilik olduğunu təəssüf hissi ilə müşahidə edirik".**

Adalet.az xəbər verir ki, bu sözləri Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fəxrəddin Altun II Beynəlxalq Media və İslamofobiya Forumundakı çıxışında deyib.

Dünyanın müxtəlif ölkələrində islam düşmanlığının bütün qurbanları ilə həmrəy olduqlarını və bunu davam etdirəcəklərini ifadə edən F.Altun islamofobiyanın bu gün sistemli şəkildə təkrarlanan formaları ilə daim qarşılaşılan qlobal bir problem olduğunu və bu səbəbdən bu çoxölçülü problemlə mübarizədə yeni yol və üsullardan istifadənin vacib olduğunu söyləyib: "İslamofobiya sadəcə Qərb cəmiyyətlərinə xas problem deyil. Bu gün irqçiliyin bir versiyası kimi yaradılan islamofobiya qlobal problemə çevrilib. Biz dünyanın istər qərbində, istər şərqində, istər şimalında, istərsə də cənubunda islamofob hərəkətlərin və sözlərin şahidi oluruq".



İslamofobiyanın tarix boyu modernləşmə prosesi ilə fərqli ölçülər qazandığına və hətta Qərb xaricindəki müsəlman cəmiyyətlərində də müşahidə olunduğuna diqqət çəkən Altun bu problemin xüsusilə müstəmləkəçilik təcrübəsi yaşamış və ya radikal modernləşməyə məruz qalmış müsəlman ölkələrində belə sıx şəkildə yaşandığını qeyd edib.

F.Altun islamofobiyanın cənub-şərqi Asiyadan ABŞ-a qədər hər yerdə insanların həyatını təhlükə altına alan, ayrı-seçkiliyi yayan və Srebrenitsa hadisəsində olduğu kimi soyqırıma qədər gedə bilən qlobal təhlükə olmağa davam etdiyini, müsəlman icmalarının getdikcə daha çox nifrət nitqinə məruz qaldığını və islamofob hücumların sayında artım olduğunu xüsusilə vurğulayıb.

Birləşmiş Millətlər Təşkilatının İnsan Haqları Şurasının dərc etdiyi hesabatda müsəlmanlara qarşı nifrət cinayətlərinin xüsusilə sosial mediada böyük ölçüdə artdığını bildirən Fəxrəddin Altun xüsusilə qərbi Avropa ölkələrində islamofobik hərəkətlərin internet mühiti ilə yanaşı sosial həyatda da geniş vüsət aldığını, bəzi ölkələrdə isə qadınların dini inancları ilə bağlı geyimlərinə görə təhsil almalarının belə qadağan edildiyini ifadə edib: "Avropada artan anti-İslam etirazları nəticəsində müsəlman icmalarının hətta məscidlərə getməyə, müsəlman qadınların dini paltar geyinməkdən çəkindiyi bir prosesin yaşandığını görürük. İslam ve müsəlman düşmanlığının təhqirdən ayrı-seçkiliyə, təzyiqdən fiziki zorakılığa və hücuma qədər bütün ölçüləri ilə hiss olunduğu bir təhlükə ilə qarşı-qarşıyayıq. İrqçi və ayrı-seçkilik xarakterli ritorika və hərəkətlərin bəzi Avropa siyasətçiləri tərəfindən dəstəklənməsi isə bu təhlükənin miqyasını daha da artırır".

Türkiyə rəsmisi bu münasibətin hətta Rusiya ilə Ukrayna arasında gedən müharibə şəraitində də özünü büruzə verdiyinə diqqət çəkib. Heç kimin yurdundan didərgin düşməsini və əzab çəkməsini qəbul etmədiklərini vurğulayan Altun Avropanın müharibə səbəbindən ölkəsini tərk etmək məcburiyyətində qalan ukraynalılara qapılarını açdığı halda, Suriyalılara, əfqanlara və ya Afrikadan gələn qaçqınlara qarşı ayrı-seçkilik nümayiş etdirməsinin ziddiyətli olduğunu deyib:

"Avropada bəzi siyasətçilərin ukraynalıları "müharibədən qaçanlar", suriyalıları isə "ölkəyə qeyri-qanuni yollarla girməyə çalışanlar" kimi müqayisə etməsi ibrət olaraq yadda qalacaq. Bu ikili münasibətə qərb mediası tərəfindən "Ukraynalılar ağdərili, xristian və avropalıdır, suriyalı deyil" kimi şərhlərlə haqq qazandırılmağa çalışılması da unudulmayacaq. Bu ikili standartın əsas motivasiyasının islamofobiya və irqçilik olduğunun təəssüflə şahidi oluruq".

"Şübhəsiz ki, Türkiyə qlobal səviyyədə islamofobiya ilə mübarizədə aparıcı rol oynayır. Cənab Prezidentimiz bütün qlobal problemlərdə olduğu kimi islamofobiya ilə mübarizəyə də rəhbərlik edir.

İslamofobiya ilə mübarizə apararkən, fərqliliklərin sərvət kimi göründüyü birgəyaşayış mədəniyyəti ilə dünyaya nümunə göstərməyə davam edəcəyik.

Ancaq hər nə qədər Türkiyə bu mövzuda geniş araşdırmalar aparsa da, islamofobiya Türkiyənin təkbaşına kökünü kəsə biləcəyi bir şey deyil. İslamofobiya və antiislamizmə qarşı beynəlxalq və çoxşaxəli mübarizə lazımdır.

Bu mübarizə heç şübhəsiz qlobal təhlükə olan islamofobiyanın mərkəzi olan Avropadan başlamalı və bütün dünyaya yayılmalıdır. Necə ki, islamofobiya Avropada getdikcə daha çox institusionallaşır, İslamofobiya ilə mübarizədə də Avropanın üzərinə böyük məsuliyyət düşür", - deyə o bildirib.

**Sübhan**

# "Elektrik enerjisi olmadan heç bir ölkə inkişaf edə bilməz"

**Azərbaycan Respublikasının enerji təminatının yaxşılaşdırılması istiqamətində alternativ enerji sahəsində işlər davam etdirilir. Bu günlərdə ölkənin energetika sahəsində daha bir əlamətdar tarix yazıldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirildi. 230 meqavat gücündə olan bu stansiya ölkəmizin enerjiyə artan tələbatını ödəyəcək və Azərbaycanın ixrac imkanlarını genişləndirəcək.**

Təməlqoyma mərasimində çıxış edən Prezident İlham Əliyev bildirdi ki, "Layihənin icraçısı dünyada tanınmış və böyük təcrübəyə malik olan "Masdar" şirkətidir. "Masdar" şirkətibir çox ölkələrdə uzun illər uğurla fəaliyyət göstərir. Bu şirkətin Azərbaycana sərmayə qoyması çox təqdiredici bir haldır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xarici sərmayə üçün çox cəlbedici ölkədir, açıq ölkədir.

Azərbaycanda çox gözəl investisiya iqlimi var.Azərbaycan xarici tərəfdaşlar qarşısında üzərinə düşən bütün öhdəliklərini yerinə yetirir. Xarici sərmayənin Azərbaycana böyük həcmdə qeyri-neft sektoruna qoyulması əsas prioritetlərimizdən biridir. Uzun illər neft-qaz sahəsinə 10 milyardlarla dollar sərmayə qoyulubdur. Bu, imkan verdi ki, enerji sahəsində istədiyimizə nail olaq".

"Bildiyimiz kimi, Azərbaycan xam neft, təbii qaz, neft məhsulları və elektrik enerjisini ixrac edən ölkədir. Ölkəmizdə elektrik enerjisinin ixracı nöqteyi-nəzərdən böyük potensial var. Azərbaycan dörd qonşu ölkəyə ixracı artıq təmin edib.Gələcəkdə ölkəmiz digər bazarlara da elektrik enerjisi ilə çıxacaq. Bunu nəzərə alaraq, hər bir yeni stansiyanın inşa olunması ixrac imkanlarımızı da artırır. Masdar" şirkəti dost ölkəni - Birləşmiş Ərəb Əmirliklərini təmsil edir. Bizim ikitərəfli münasibətlərimiz çox yüksək səviyyədədir. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə uğurla əməkdaşlıq edirik. Ticarət əlaqələrimiz artır, turizm sahəsində çox böyük imkanlar var. Bərpaolunan enerji istehsalı sahəsində də əməkdaşlığa bu gün start verilir.

Hələ 3 ay tamamlanmayıb ki, artıq 855 meqavat gücündə yeni generasiya gücləri yaradılır, 385 meqavat generasiyagücü isə artıq yaradılıbdır.Cari ilin əvvəlindən energetika sahəsində çox önəmli addımlar atılıbdır. Yanvar ayında bu sahədə məşhur olan, Səudiyyə Ərəbistanını təmsil edən "ACWA Power" şirkəti




ilə 240 meqavat gücündə Külək Elektrik Stansiyasının təməli qoyuldu. Fevral ayında "Azərenerji" tərəfindən inşa edilmiş 385 meqavat gücündə elektrik stansiyasının açılışı oldu və bu gün 230 meqavat gücündə günəş elektrik stansiyasının təməli qoyulur". Bərpaolunan enerji növlərinin inkişafı barədə danışan Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan üçün prioritet məsələdir:"2023-cü ildə əlavə güclər Azərbaycanın ümumi sisteminə daxil ediləcəkvə buişin başlanğıc hissəsidir. Uzun illər ərzində mövcud istiqamətdə fərqli işlər aparılır.Azərbaycanda mövcud olan sabitlik, iqtisadi inkişaf, qonşu ölkələrlə münasibətlərimiz, nəqliyyat, kommunikasiyalar, elektrik xətləri nöqteyi-nəzərdən qonşu ölkələrlə sıx təmaslar unikal bir vəziyyət yaradır ki, Azərbaycan nəinki xam neft, neft məhsulları və təbii qaz, eyni zamanda, elektrik enerjisinin böyük istehsalçısı və ixracatçısı olacaqdır". Qonşu ölkələrdə və Avropa qitəsində elektrik enerjisinə böyük ehtiyac vardır.

Azərbaycan elektrik enerjisini yalnız ekoloji cəhətdən təmiz mənbələrdən istehsal edir- təbii qaz, su, günəş və külək. Azərbaycanda bərpaolunan enerji növlərinin potensialı həddindən artıq böyükdür. Məhz buna görə dünyanın aparıcı enerji şirkətləri indi Azərbaycanla bu sahədə əməkdaşlıq etməyə çox maraqlıdırlar.

İlham Əliyev İşğaldan azad edilmiş ərazilər böyük potensialı barədə məlumat verərək bildirdi ki, işğaldan azad olunan ərazilər bərpa olunan enerli sahəsi üçün geniş imkanlara malikdir: "Dəqiq hesablamalar aparılıb və günəş, külək enerji növlərinin istehsalı təxminən 9-10 min meqavata çata bilər. İlkin addımlar da atılır, BP şirkəti ilə generasiya gücü 200 meqavatdan çox olan günəş elektrik stansiyasının inşası ilə bağlı danışıqlar gedir. Digər böyük şirkətlər bu bölgəyə maraq göstərirlər.

Qısa müddət ərzində görülmüş işlər Azərbaycanın iqtisadi potensialından xəbər verir.Keçən il 4 su elektrik stansiyasıbərpa olunub. Onların ümumi generasiya gücü 20 meqavatdır. Cari il isə 5 su elektrik stansiyasının yenidən qurulması planlaşdırılır və bu stansiyaların generasiya gücü 27 meqavat olacaqdır. Bu stansiyaların ancaq Kəlbəcər və Laçın rayonlarında sayı 30-dan çox olacaqdır və bu, su elektrik stansiyalarıdır. Günəş və külək elektrik stansiyalarının yaradılması üçün daha böyük potensial var. Bütün infrastruktur yaradılıb, daxili xətlər müasirləşdirilib, bir çox yarımstansiyalar inşa olunub, o cümlədən azad edilmiş torpaqlarda cəmi bir il ərzində 7 yarımstansiya yaradılıbdır".

"Azərbaycanın sənaye və iqtisadiyyatı durmadan inkişaf edir.

Bu ilin iki ayında ümumi daxili məhsul 6,7 faiz, qeyri-neft sektoru 10,1 faiz, qeyri-neft sənaye istehsalı təxminən 21 faiz artmışdır. Bütün bunlar postpandemiya dövründə əldə edilmiş nailiyyətlərdir və onu göstərir ki, Azərbaycanda aparılan islahatlar, sənayeləşmə siyasəti, biznes mühitinin yaxşılaşdırılması və xarici sərmayənin cəlb edilməsi istiqamətində doğrudan da təqdirəlayiq addımlar atılır. Azərbaycan dünya miqyasında o ölkələrdəndir ki, ölkəmizdə xarici dövlət borcu çox aşağı səviyyədədir, cəmi 7,4 milyard dollardır.

Elektrik enerjisi olmadan heç bir ölkə inkişaf edə bilməz.Həm beynəlxalq maliyyə qurumları, həm böyük şirkətlər, investorlar Azərbaycana çox böyük maraqla yanaşırlar. 10 min kvadratkilometrdən çox olan azad edilmiş torpaqların bərpası ölkəmizin dayanıqlı inkişafını təmin edəcəkdir".

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışının sonunda bildirdi ki, Azərbaycanda zəngin neft və qaz yataqları vardır və bu yataqların istismarı və işlənilməsi uğurla gedir. Müasir infrastruktur vardır - həm nəqliyyat, həm kommunikasiya, həm də elektrik xətləri ixrac bazarları ilə bizi birləşdirir. Güclü siyasi iradə vardır. Dünyanın demək olar ki, əksər ölkələri ilə sıx tərəfdaşlıq əlaqələri vardır. Bütün bu amillərin vəhdəti ölkəmiz üçün çox gözəl bir imkanlar yaradır.**

**Hazırladı:**
**Rüstəm Hacıyev**

# *Baş nazir hesabat verdi*

**Martın 15-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin sədri Sahibə Qafarova iclası açaraq bildirib ki, ötən il Milli Məclisdə Nazirlər Kabinetinin hesabatının müzakirəsi zamanı irəli sürülmüş təkliflər, həmişə olduğu kimi, yenə də Hökumət tərəfindən diqqətlə araşdırılmışdır. Bu təkliflərin icra vəziyyətinə dair ətraflı məlumat bizə təqdim edilmişdir. Eyni zamanda, artıq iki ildir ki, hesabata ayrıca olaraq, Milli Məclis deputatlarının sosial və infrastruktur obyektlərinin əsaslı təmirinə və tikintisinə, xidmətlərin keyfiyyətinin yaxşılaşdırılmasına dair təkliflərinin icrası barədə məlumat da daxil edilmişdir.**

Sahibə Qafarova deputatların bu gün aparılacaq müzakirədə də fəal iştirak edəcəklərini, səmərəli təkliflər irəli sürəcəklərini deyib.

Sonra Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Nazirlər Kabinetinin 2021-ci ildə fəaliyyəti haqqında hesabatı təqdim edərək bildirib ki, pandemiyanın yeni dalğasına baxmayaraq, çevik tədbirlərin görülməsi, peyvəndlənmə prosesinin artımı və sosial təcrid məhdudiyyətlərinin tədricən yumşaldılması nəticəsində iqtisadi fəallıq bərpa edilib. Diqqətə çatdırılıb ki,2021-ci ildə ölkədə Ümumi Daxili Məhsul 5,6%, sənaye istehsalı 5,2% artmışdır. O cümlədən, artım tempi qeyri-neft sektoru üzrə 7,2%, qeyri-neft sənayesi üzrə 18,9%, kənd təsərrüfatı istehsalında 3,4% təşkil edib. Məlumat verilib ki, ötən dövrdə xarici ticarət dövriyyəsi təxminən 35,6 mlrd. ABŞ dollarına çatmış, müsbət ticarət saldosu 12,1 mlrd. ABŞ dollarını ötmüşdür. Vergi və gömrük daxilolmaları üzrə yığımlar proqnozdan 1,7 mlrd. manatdan çox olmuşdur ki, bu vəsait də 2022-ci ilin dövlət büdcəsinin sosial yönümlü xərclərinin artımına yönəldilmişdir. Ölkənin strateji valyuta ehtiyatları 53,0 mlrd. ABŞ dollarını ötmüşdür və xarici birbaşa dövlət borcunu 7 dəfədən çox üstələyir. 2021-ci ilin sonuna xarici birbaşa dövlət borcunun məbləği 7,4 mlrd. ABŞ dolları olub. Dövlət büdcəsinin gəlirləri 25,4 mlrd. manat proqnoza qarşı 26,4 mlrd. manat təşkil edib. Hesabatda bildirilib, 2021-ci ildə ölkəmizdə əvvəlki illə müqayisədə orta illik inflyasiya 6,7%, 12 aylıq inflyasiya isə 12% təşkil etmişdir. Ümumi inflyasiyanın 60%-i ərzaq inflyasiyanın payına düşmüşdür. Məruzədə deyilib ki,ötən il ərzində kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 455 mln. manat vəsait sərf edilib ki, bu da 2020-ci illə müqayisədə 13% çoxdur. Həmçinin, Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilən güzəştli kreditlərin 59% aqrar sektora yönəldilmişdir.

Qeyd edilib ki, Prezident İlham Əliyevin tapşırığı əsasında reallaşdırılansosial paket çərçivəsində 2022-ci ilin əvvəlindən ölkədə əməkhaqlarında növbəti artımlar edilib. Minimum aylıq əməkhaqqının 250 manatdan 300 manata çatdırılması ilə əlaqədar 800 min işçinin, o cümlədən maaşları Vahid Tarif Cədvəli üzrə müəyyən olunanların əmək haqqında orta hesabla 20 faiz artım baş verib. Minimum əməkhaqqı artımı üçün 2022-ci ilin dövlət büdcəsindən ayrılan əlavə illik vəsait 460 mln. manat təşkil edir. Ümumilikdə, 2022-ci il üzrə əməkhaqqı, pensiya və digər sosial ödənişlərin artımı ilə bağlı sosial paket 3,4 mln. şəxsi əhatə edir. Bu artımlar üçün ayrılan illik əlavə vəsait 2,1 mlrd. manat təşkil edir.



Xüsusi olaraq qeyd edilib ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə, şəhid ailələrinə, həmçinin sosial cəhətdən həssas təbəqədən olan digər ailələrə 2021-ci ildə 3000-dən artıq mənzil təqdim edilib. Qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi üçün 2021-ci ilin dövlət büdcəsindən 354 mln. manat vəsait ayrılıb. 44 günlük Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların ailə üzvlərinə, xəsarət almış və əlil olmuş hərbi qulluqçulara bütövlükdə təqribən 55 mln. manatdan çox sığorta ödənişləri verilib. Eyni zamanda, 2021-ci ildə də ölkəmizin müdafiə qabiliyyətinin, hərbi qüdrətinin artırılması istiqamətində əməli addımlar atılıb. Yeni silahlar, texnikalar alınıb, ordunun maddi-texniki bazası daha da möhkəmləndirilib. Çıxışının davamında Əli Əsədov 2022-ci ildə Hökumətin qarşısında duran əsas vəzifələr və nəzərdə tutulan işlər barədə də qısa məlumat verib.

Cari ildə hökumətin "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"ndan irəli gələn əsas prioritetlərdən danışıb.Bu prioritetlər sırasında dayanıqlı inkişaf; iqtisadiyyatın şaxələndirilməsi, onun rəqabət qabiliyyətinin artırılması;makroiqtisadi və maliyyə sabitliyinin qorunması;fiskal dayanıqlığın təmin edilməsi, xərclərin optimallaşdırılması və qənaət rejimində istifadəsi; biznes mühitinin yaxşılaşdırılması və struktur dəyişikliklərinin sürətləndirilməsi; antiinhisar siyasətinin, həmçiçinin daxili bazarda qiymət manipulyasiyası üzərində nəzarətin gücləndirilməsi;qlobal ərzaq bazarlarında bahalaşmanın ölkənin ərzaq təminatına mənfi təsirinin qarşısının alınması və ərzaq təhlükəsizliyinin təmini;əhalinin sosial müdafiəsinin gücləndirilməsi və digər mühüm vəzifələrin dayandığını qeyd edib. Fasilədən sonra Nazirlər Kabinetinin 2021-ci ildəki fəaliyyəti haqqında hesabatının müzakirələri davam etdirilib.

Çıxış edən deputatlar bildiriblər ki, Nazirlər Kabineti ötən il qarşıya qoyulan vəzifələrin öhdəsindən gəlib, hökumət ölkə həyatının bütün istiqamətləri üzrə uğurla fəaliyyət göstərib. Deputatlar hökumətin rəqabət qabiliyyətli iqtisadiyyatın yaradılması, koronavirus pandemiyası ilə mübarizə, postmüharibə dövrünün çağırışları, işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, Qarabağ və Şərqi Zəngəzurda iqtisadi, sosial, mədəni inkişafın təmin olunması kimi istiqamətlərdə fəaliyyətini təqdir ediblər. Qeyd olunub ki, 2021-ci ildə İcbari Tibbi Sığorta daha geniş və uğurlu şəkildə tətbiq olunmaqla ölkəmizin bütün ərazilərini və vətəndaşlarını əhatə edib, bu sahədə vətəndaş məmnunluğu artıb.

Bununla yanaşı, millət vəkilləri seçicilərinin qarşılaşdığı problemləri də hökumətin diqqətinə çatdırıblar, təmsil etdikləri regionların inkişafı, kommunal xidmətlərin və sosial infrastrukturun yaxşılaşdırılması kimi məsələlərlə, həmçinin Azərbaycanın gələcək tərəqqisi ilə bağlı fikirlərini səsləndiriblər.

**Baş nazir Əli Əsədov deputatlar tərəfindən qaldırılan məsələlərə münasibət bildirdikdən sonra hesabat səsə qoyularaq nəzərə alınıb.**

**Nicat Novruzoğlu**
**Parlament müxbiri**

# "Revanşist " ermənilərin "5 bəndlik təklif"ə "təəccübü"

**Xəbər verdiyimiz kimi Azərbaycan Ermənistana münasibətlərin normallaşması ilə bağlı 5 maddədən ibarət sənəd göndərib . Ermənistan tərəf daha dəqiq Ermənistanın Xarici İşlər Nazirliyi sorğunu dərhal cavablandırıb. Beləki, revanşist bir cəmiyyətlə təkbaşına qərar verə bilməyən Ermənistan hökuməti açıqlama vermək məcburiyyətində qalıb:" BMT Nizamnaməsi əsasında Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin bağlanması üzrə danışıqların təşkili məqsədilə Ermənistan ATƏT-in Minsk Qrupunun həmsədrlərinə müraciət edib". Hələlik rəsmi Bakı Ermənistanın verəcəyi son və konkret cavab gözləyir . Bəs, ermənilər nə düşünür? Xatırladaq ki, bəndlər bunlardır:**

***1.Ermənistan Silahlı Qüvvələrinin qalıqlarının Qarabağdan çıxarılması;***

***2. Ölkələrin ərazi bütövlüyünün tanınması və sülh müqaviləsinin imzalanması;***

***3. Sərhəd boyu delimitasiya prosesinin başlanılması;***

***4. Ermənistan-Türkiyə normallaşma prosesinin sürətlənməsi***

***5. Zəngəzur dəhlizi üzrə kommunikasiyaların blokadadan çıxarılması.***

Siyasi şərhçi Derenik Malxasyan çox güman ki, "5 bəndlik təklif"in "qürurunu" qırdığını düşünür. Əgər belə olmasaydı, çarəsizcəsinə bu ifadələri işlətməzdi: "Müharibənin bitməsindən 2 il keçməsinə baxmayaraq hələ də Bakı İrəvan üzərində diktə edən tərəf kimi çıxış edir. ( Görəsən, özünə siyasi ekspert deyən biri anlamır ki, 44 günlük müharibədə Azərbaycan qalib, Ermənistan isə məğlub tərəfdir?- red- Ə.R.) Kapitulyasiya davam edir? Azərbaycan Xarici İşlər Nazirliyinin rəhbəri bildirib ki, ölkəsi münasibətlərin normallaşması üçün Ermənistana 5 bəndlik sənəd göndərib və qarşı tərəfdən cavab gözləyirlər. Burada ən azı iki məqamı təxmin etmək çətin deyil. Birincisi, Qarabağın Azərbaycanın bir hissəsi kimi tanımaq. İkincisi isə Zəngəzur dəhlizini təmin etmək". Əslində Malxasyan hardasa haqlıdır. Gərək Azərbaycan hökuməti "5 bəndlik təklifi" 2 ildən sonra deyil, müharibə bitməsindən sonra- təxminən bir ay müddətində Ermənistana göndərəydi. Ermənistan ordusunun 30 ildə Azərbaycan torpaqlarında xaraba qoyduğu şəhər və kəndlərin , eləcə də 30 ildə talanmış yeraltı-yerüstü sərvətlərin təzminatını ödətdirəydi, 1920-ci ilin xəritəsinə əsasən sərhəd xətlərini müəyyənləşdirəydi O zaman nəinki Malxasyan ümumiyyətlə heç bir erməni Azərbaycanın qalib olduğuna şübhə ilə yanaşmazdı.

**Qeyd edək ki, hələlik Ermənistan Azərbaycanın göndərdiyi "5 bəndlik təklif"ə rəsmi cavab verməyib.**

**Əntiqə Rəşid**

*AQİL ABBAS*

# *EŞŞƏK YARIŞI*

***Hər il Qarabağdakı ermənilər Ağdərədə "möhtəşəm" eşşək yarışı keçirirdilər, yəni cıdırı. Hətta xaricdən qonaqlar dəvət edərdilər, televiziya ilə də canlı yayımlayardılar. Dünyada hər bir xalqın özünəməxsus müxtəlif yarışları var. Məsələn, ərəblər dəvə cıdırı keçirirlər, ingilislər, almanlar avtomobil cıdırı və demək olar ki, ruslar da bu avtomobil cıdırına qoşulub, özü də müxtəlif markalı maşınlarla. Türklərdə isə at cıdırı, iki min ildi, bəlkə də çox, mövcuddu. Və təbii ki, bizdə də.***

***Düzdür, son 5 ildə Bakıda formula yarışları keçirilir, dünyanın "avtoxuliqanları" tökülür Bakıya. Amma çox qəribədir ki, bəlkə Bakıdakı avtoxuliqanların sayı başqa ölkələrdəkindən daha çoxdu, lakin bir "avtoxuliqan" yetişdirə bilməmişik.***

***Bizimki atdı, at. Düzdür, 3 milyon manat verib bir at aldıq, o da meydana çıxan kimi jokeyin xamlığından ayağı qırıldı.***

***Ermənilər də yaranan gündən eşşək belində gəziblər deyin, şənbəbazar Ağdam bazarına öz matahlarını satmağa gətirən ermənilərin eşşəklərinin əlindən tərpənmək olmurdu, onlar da eşşək yarışları keçirirdilər.***

***Eşşək həm yazıq, həm də maraqlı heyvandı. Gözəl gözləri var, qəşəng su içməyi var, nə qədər də istəyirsən yüklə, daşıyacaq. Amma arada soncuqlaması və şıllaqlaması da var. Bilmirəm bu, sahiblərindən onlara keçib, yoxsa onlardan sahiblərinə?***

***İndi Qarabağda ermənilərin tez-tez bizim mövqeləri atəşə tutması da həmin şıllaqlama kimi bir şeydir. Eşşək şıllaqlayanda dalına bir-iki ağac çəkirsən, çönür olur, iraq bərəkətindən, quzu balası.***

***Amma neçə ildir day eşşək yarışı keçirmirlər. Ola bilər ki, bu il yenidən bu yarışı təşkil etsinlər, Makronu və gorbagor olmuş ATƏT-in nümayəndələrini və sülhməramlı kontingentin general və polkovniklərini də dəvət edələr və hərəsinə də bir eşşək verələr, deyələr görək kim çempion olur.***

***Yəqin çalışarlar ki, Makron olsun. Makron çempion olanda da ona bir "petux" bağışlayıb könlünü xoş eləyərlər.***

***Allah Mirzə Cəlilə rəhmət eləsin, "Usta Zeynal"da belə bir yer var:***

***Şəyirdi Usta Zeynaldan soruşur:***

***- Usta, ermənilər bilir ki, qoyun əti donuz ətindən yeməlidir, bəs niyə donuz əti yeyirlər?***

***Usta Zeynal:***

***- Oğlan, adamın adam yeməyi var, heyvanın heyvan.***

***İndi dünyada xalqlar at, dəvə, avtomobil, hətta dəvəquşu yarışları keçirirlər, ermənilər də eşşək yarışı.***

***Usta Zeynal demiş, adamın adam yarışları olur, heyvanın da eşşək yarışları.***

## *Dövlətə xəyanətdə şübhəli yaxalandı*

**Azərbaycanın milli təhlükəsizlik maraqlarına yönələn təhdidlərin, xarici xüsusi xidmət orqanlarının kəşfiyyat-pozuculuq fəaliyyətinin aşkar edilməsi və qarşısının alınması istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən kompleks əks-kəşfiyyat tədbirləri davam etdirilir.**

Adalet.az xəbər verir ki, bu barədə DTX-nin saytı məlumat yayıb.

Başlanılan cinayət işi üzrə Azərbaycan vətəndaşı, 1981-ci il təvəllüdlü Məmmədov Emil Ramiz oğlu dövlətə xəyanət etməkdə şübhəli bilinib.

Aparılan araşdırmalarla Emil Məmmədovun Azərbaycanın suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və müdafiə qabiliyyəti zərərinə düşmən tərəfinə keçməklə xarici xüsusi xidmət orqanının nümayəndələrinin tapşırıqlarını yerinə yetirərək onlara kömək etmək məqsədilə maddi maraq müqabilində üçüncü ölkə ərazisində Ermənistan xüsusi xidmət orqanının əməkdaşları ilə görüşüb məxfi əməkdaşlığa cəlb edilməsi, Azərbaycanın dövlət təhlükəsizliyi zərərinə istifadə oluna biləcək məlumatların toplanması barədə tapşırıqlar alması, verilmiş tapşırıqların icrası istiqamətində fəaliyyət göstərməsi, Ermənistan xüsusi xidmət orqanının nümayəndələri ilə əlaqələrinin gizliliyinə və konspirasiya tələblərinə dair təlimatlandırıldığı qaydalara riayət etməsinə əsaslı şübhələr müəyyən edilib.

Emil Məmmədov Azərbaycan Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə məsuliyyətə cəlb olunaraq məhkəmənin qərarına əsasən həbs edilib.

**Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.**

*Səxavət Məmməd*

# Malı mala qatmayın



**Neçə gündür Xocalı, Xankəndi, Xocavəndlə bağlı bir səs yazı telefonları gəzir. Bir neçə gün əvvəl Qarabağda baş verənlərlə bağlı məqalə yazmışdım. Yazı sırf düşüncələrim, ehtimallarım idi. Ancaq iddiaların ardı-arası kəsilmədiyi üçün yollanmışdım Qarabağa. Gözümlə görüm. Gördüyüm, müşahidə etdiyim və mənbələrimlə söhbət o gün yazdığım yazının eynisi ilə məni qarşılaşdırdı.**

**Ərazidə Ermənistan və Rusiyanı eşitməyən qruplar var. Onlar davamlı olaraq davam edən prosesə mane olmağa çalışırlar. Bunun üçün də lazım olan bölmələr hazır vəziyyətə gətirilir və cəza tədbirləri həyata keçirir.**

**XTQ və Komandonun hansısa istiqamətə getməsi o demək deyil axı müharibə olacaq. Kiminsə qulağına Qarabağdakı vəziyyətlə bağlı bir şey çatan kimi götürüb sosial şəbəkəyə mütləq yazır ki, "Allah ordumuzu qorusun", "xoş xəbərlər gözləyirik". Anında bu adamları ciddi qəbul edənlər bir ümidə qapılır.**

**İnsanların hissi ilə oynamaq niyə bu qədər asan olmalıdır? Gizəmli danışıq, gizımli açıqlama. Biri də çıxıb üzr istəmir. Xankəndi mühasirədə imiş. Əskəranda erməni olduğu halda Xankəndi necə mühasirədə ola bilər? Xankəndi mühasirədədirsə Qarabağda öz bölmələrimiz üz-üzə dayanıb? Onda özümüz özümüzə atəş açırıq, sonra da çıxıb deyirik ki, atəşkəs pozulub?**

**Dindirində özlərini dövlətdən daha çox dövlətçi sayırlar. Ancaq erməni propaqandasının yazdığının eynisini yazıb, deyirlər. İşin mahiyyətinə baxanda isə çox fərqli, proqramlı iş aparıldığını görürük.**

**Bir müharibə, bir əməliyyat üçün ssenari, A, B, C (...) planları olmalıdır. Hansı dünyada yaşayırıq, fərqindəsiniz? Kefim belə istəyirlə əməliyyat həyata keçirmək olur? 44 günlük müharibə kefin istəməyi ilə başlamışdı?**

**Özünüzə hörmətiniz yoxdur (cəhənnəmə ki), heç olmasa "Allah qorusun" dediklərinizə, onların ailəsinə, yaxınlarına hörmət edin. Zabit olan bir dostum var. Deyir, evdəkiləri başa sala bilmirəm ki, hamısı boş şeydir. Deyirlər, yox, nəsə bilib gizlədirsən, bəzən də deyirlər, onda sənin orda olanlardan xəbərin yoxdur. Adam fakt ərazidə xidmət edir ha.**

**Guya xalqın əhvalın qaldırırsınız? Ümumiyyətlə, sizi xalqın əhvalını qaldıran vəzifəsinə kim təyin edib? Yaxşı, camaatı havaya soxdunuz, bəs indi niyə çıxıb üzürxahlıq etmirsiniz? Guya bu informasiya müharibəsidir? Ayıbdır! O səs yazıları, video və yazılanlarla bağlı dayanmadan mesaj yazırlar. Hamısına da cavabım eynidir. Yalandır! O "yalandır"dan sonra bilirsiniz də, nə söyüşlər yazırlar. Bunu necə götürürsünüz?**

**Bir də, bu tip adamlar aylar sonra hansısa hadisə baş verəndə çıxıb yazırlar ki, bəs filan vaxt demişdik. A kişilər, proqnoz yaxın və uzaq vadəli olur. "Rusiya dağılacaq" proqnozu uzaq vadəlidir, ancaq Qarabağda hazırda baş verənlərlə bağlı nəsə yazmaq günlükdür. Malı mala qatmayın.**

# Heydər Əliyev: "Novruz dostluq, həmrəylik, yüksək mənəviyyat bayramıdır"

**”Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır. Mən buna inanıram və bu inamla yaşayıram, bu inamla işləyirəm və bu inamla da Azərbaycan xalqına rəhbərlik edirəm.”**

**Ulu Öndər Heydər Əliyev (”Azərbaycan” qəzeti, 24.03.1998)**



Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ümummilli Liderin vəsiyyətini və Azərbaycan xalqının arzularını reallaşdırdı. Ali Baş Komandanın rəhbərliyi altında müzəffər Azərbaycan Ordusu doğma torpaqlarımızı işğaldan azad etdi və biz artıq həmin ərazilərdə Novruz bayramını qeyd edirik.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın böyük səyi nəticəsində Novruz bayramı UNESCO tərəfindən Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edilib. 28 sentyabr - 2 oktyabr 2009-cu ildə Birləşmiş Ərəb ƏmirliklərininAbu-Dabi şəhərində keçirilmiş UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökümətlərarası Komitəsinin 4-cü Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, Novruz çoxmillətli (Azərbaycan, Hindistan, İran, Qırğızıstan, Pakistan, Türkiyə, Özbəkistan) nominasiya kimi UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ siyahısına salınıb. Novruz təkcə onu keçirən türk xalqlarının deyil, ümumilikdə bəşəriyyətin mənəvi dəyəri hesab edilir.İslamdan əvvəl tarixi dövrə təsadüf olunan Novruz bayramı Azərbaycan yanaşı bütün Şərqdə qeyd olunur. 23 fevral 2010-cu ildə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında martın 21-i "Beynəlxalq Novruz Günü" elan olunub.

Azərbaycanın beynəlxalq təşəbbüslərini dəstəkləyən ölkələrin sayı daim artır.28 noyabr-2 dekabr 2016-cı il tarixlərində Efiopiyanın Əddis-Əbəbə şəhərində keçirilmiş UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 11-ci sessiyasında İraq, Qazaxıstan, Tacikistan, Türkmənistan və Əfqanıstan da Novruz bayramı nominasiyasına qoşulub. Novruz Bayramı dostluq, həmrəylik və yüksək mənəviyyat bayramıdır.

Azərbaycan xalqının milli adət-ənənəsinə görə Novruz bayramında küsülülər barışmalı, qohumlar bir-birini ziyarət edib, bayram süfrələri açmalıdırlar.

İnsanlar baharın gəlişi ilə torpağın əkib-becərilməsinə başlayır, bağban meyvə ağaclarını budayır.21 mart 2000-ci il tarixində Azərbaycan xalqının Novruz bayramı münasibətilə təbrik edərkən Ulu Öndər Heydər Əliyev öz çıxışında demişdir: "Novruz bayramınınbizə bəxş etdiyi ən gözəl nemət ondan ibarətdir ki, qədim zamanlardan bu bayramda insanlar kin-küdurəti unudur, küsülülər barışır, ziddiyyətlər aradan götürülür. Deməli, bu, dostluq, həmrəylik, yüksək mənəviyyat bayramıdır.";

Novruz bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ilə ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların rəhbərləri arasında qarşılıqlı bayramlaşma ölkədə yeni, mütərəqqi siyasi mədəniyyətin təşəkkülünü göstərir.

Novruz fəlsəfəsi: dörd ünsür, dörd bayram çərşənbəsi.İlk çərşənbə Su çərşənbəsi adlanır. Su çərşənbəsi adətən havaların yavaş-yavaş isinməyə başladığı, çaylardakı buzların əriyərək çaya qarışdığı vaxt ilə üst-üstə düşür.

İlin ikinci çərşənbəsi isə Od çərşənbəsi adlanır. Bu çərşənbə etibarən günəş torpağı daha da qızdırmağa başlayır. Üçüncü çərşənbəsi isə Yel çərşənbəsidir. Bu gündən etibarən bəzi ağaclarda tozlanma başlayır. Dördüncü və ilin son ilaxır çərşənbəsi isə Torpaq çərşənbəsi adlanır.

Zəngin tarixi və rəngarəng folkloru özündə ehtiva edən Novruz bayramının özünə məxsus adətləri var."Papaq atmaq", "qulaq falı", "tonqaldan tullanmaq", "üzük falı","səməni əkmək", "yumurta döyüşdürmək" və Novruz bayramı ilə əlaqədəndirilən digər məşhur adətlər Azərbaycan xalqının tarixini, onun zəngin folklorunu və fəlsəfəsini özündə ehtiva edir. Novruzda bayram masasının üzərində mərkəzində səməni olan xonçanın olması vacibdir.

Səməninin ətrafına milli şirniyyatlar: paxlava - yer kürəsinin 4 istiqamətini, qoğal-günəşi, şəkərbura-ayı, rənglənmiş yumurta-həyatı simvolizə edir. Adətə görə süfrədə "S" hərfi ilə başlayan 8 məhsul olmalıdır: səbzi, sumaq, sirkə, səməni, süd,su, sünbül və süzmə süfrədə olması vacib şərtdir.Bayram süfrəsinin əsas bəzəyi şah plovdur.

Novruz bayramı qonşuları, dostları xonçaya yığılmış şirniyyatlara qonaq etməklə davam edir. Novruz ənənələri incəsənətimizdə də yer alıb. Xalqımızın sənətkarları Novruz bayramı haqqında mahnılar yazmış, filmlər çəkmişlər.

Üzeyir Hacıbəyov, Fikrət Əmirov, Oqtay Zülfüqarov, Rəhilə Həsənova kimi görkəmli bəstəkarlar müxtəlif mahnılar yazmışlar. Həmçinin, Novruz haqqında Novruzun çələngi və Ocaq kimi Azərbaycan filmləri də çəkilib.

**Novruz bütün ölkədə aşıqların, xanəndələrin, xalq müğənnilərin konsertləri keçirilən kütləvi bayramdır. Burada kəndirbazlar, pəhləvanlar öz güclərini nümayiş etdirir, meydanlarda kosa və keçəlin iştirakı ilə komik tamaşalar göstərilir. Kosa qışı, keçəl isə yazı simvolizə edir. Söz yarışmasında, əlbəttə ki, keçəl qalib gəlir. Kənd yerlərində at yarışları - çovqan oyunu keçirilir. Bakıda əsas bayram tədbirləri əfsanəvi Qız qalasının ətrafında keçirilir. Həmin gün nəhəng qalanın yüksəkliyini nəhəng səməni bəzəyir, gözəl Bahar qızı Qız qalasında təbiətin oyanmasını, həyatı simvolizə edən məşəli yandırır.**

**Hazırladı:**
**Mehriban Cəfərova**

*MEHMAN CAVADOĞLU*

# Azərbaycan üçbucağı

***Keçən həftənin sonlarında Azərbaycanla İran arasında hər iki ölkənin həyatında və bütövlükdə regionun gələcək geopolitik durumunda yeni perspektivlər açan tarixi bir razılıq əldə olundu. İqtisadi, ticari və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə dövlət komissiyasının Bakı şəhərində keçirilən növbəti 15-ci iclasında Baş nazirin müavini Şahin Mustafayevlə İranın Yol və Şəhərlərin inkişafı naziri Rüstəm Qasimi yeni bir nəqliyyat dəhlizinin yaradılması haqqında memorandum imzaladılar ki, bunu ölkələrarası münasibətləri həm rəsmi, həm də faktiki olaraq strateji müttəfiqlik səviyyəsinə qaldıran mühüm hadisə saymaq olar. Şərqi Zəngəzur iqtisadi regionuyla Naxçıvan Muxtar Respublikasını birləşdirəcək həmin dəhliz Zəngilan rayonundan İran ərazisi vasitəsiylə Ordubada kimi uzanacaq. Bu məqsədlə Araz çayının hər iki rayonun ərazisindən keçən hissəsində iqtisadi ərazilərin, ikisi də avtomobillərin hərəkəti üçün nəzərdə tutulan dörd körpü salınacaq.***

***30 illik müstəqillik dönəmində bizim eyni mental, əhalisinin az qala yarısıylasa eyni etnik köklərə malik olduğumuz cənub qonşumuzla münasibətlərimiz heç də hamar olmayıb, ən müxtəlif səviyyələrdə söylənilən qardaşlıq nağıllarına baxmayaraq, daimi gərginliklə müşahidə edilib. Təsadüfi deyil ki, 44 günlük müharibənin getdiyi dövr də daxil bütün bu illər ərzində Azərbaycanın ”ərazi bütövlüyünü dəstəkləməklə” bağlı saysız-hesabsız şablon bəyanatlar səslənidirən rəsmi Tehran sonda yenə də öz ”din və məzhəb qardaşları”nın tarixi zəfərini sinirə bilmədi, hər fürsətdə öz hikkəsini nümayiş etdirirməkdən, sözdə bir, əməldə başqa davranış sərgiləməkdən çəkinmədi. İşğal altında olan Azərbaycan ərazilərindəki maddi-mənəvi sərvətlərin yağmalanması prosesində Ermənistanla çiyinçiyinə hərəkət eləməksə bir ayrı söhbətin mövzusudur.***

***Müharibədən sonrakı aylarda onun dildə qardaş adlandırdığı ölkəyə qarşı yeritdiyi aqressiv siyasət öz pik nöqtəsinə çatdı. Hərbi təlimlər vasitəsilə hədə-qorxu gəlmək səviyyəsinə qədər yüksələn isterik davranışların, Azərbaycana qarşı regionun əsas güc sahibiylə anlaşmaq üçün göstərilən uğursuz diplomatik vurnuxmaların qızdırması hələ də keçməyib. Həmin vaxt rəsmi Bakının da ritorikası yüz səksən dərəcə dəyişdi və o öz cənub qonşusuna qarşı yeritdiyi 30 illik ölçülü-biçili siyasətə son qoyaraq, ”ən yaxşı müdafiə hücumdur” taktikasını seçməyə məcbur oldu. Yalnız bundan sonra gərginlik sürətlə azaldı və qısa müddətdə six əməkdaşlıq istiqamətində mühüm addımlar atıldı.***

***İndi iki ölkə prezidentinin Aşqabad görüşündə əldə olunmuş uğurlu ticari razılaşmaların ardınca gözlənilmədən dəhliz söhbətinin də üzə çıxması artıq münasibətlərin həqiqətən ciddi mərhələyə daxil olmasının əlamətidir. ”Dəhliz diplomatiyası” İran-Azərbaycan münasibətlərində təzə məsələ deyil. Bu iki ölkə arasında hələ neçə ildir ki, ”Şimal-Cənub” dəhliziylə bağlı infrastrukturların yaradılması istiqamətində çox ciddi əməkdaşlıq mövcuddur. Azərbaycan həmin layihənin gerçəkləşdirilməsi üçün vaxtilə İrana konkret maliyyə dəstəyi də göstərmiş, artıq yekunlaşmaq mərhələsində olan Astara-Rəşt dəmir yolunun tikintisi üçün 500 milyon dollar kredit də ayırmışdı.***

***Bütün bunlara baxmayaraq İranın nə vaxtsa öz ərazisindən Azərbaycanla Naxçıvanı və Türkiyəni birləşdirəcək bir dəhlizin yaranmasına razılıq verəcəyi ağlabatan görünmürdü. Onun Ermənistanla isti, Türkiyəylə soyuq, Azərbaycanlasa mövsümi münasibətləri bunu apriori mümkünsüz edirdi. Bir sözlə, İran kimi siyasi ambisiyaların əsiri olan bir dövlətin belə gözlənilməz addım atması sözün həqiqi mənasında sürpriz oldu.***

***Başqa sürprizsə mühüm tarixi əhəmiyyət kəsb eləyən bu hadisənin imza gününə kimi gizli saxlanması və yaxın-uzaq hamını qəfil yaxalaması ydı. Onu da xatırladaq ki, dünyanın başı Rusiya-Ukrayna müharibəsinə qarışdığı üçün hələlik beynəlxalq birliyinin bu anlaşmaya adekvat və qeyri-adekvat reaksiyası da geçikməkdədir. Təbii ki, hələlik.***

***Belə ciddi layihələr nə qədər iqtisadi amillərlə pərdələnsə də, daha çox siyasi-geopolitik hadisədir və birincidən fərqli olaraq ikincinin gəlir-çıxarını hesablamaq xeyli çətindir. Bu baxımdan layihənin hətta hipotetik olaraq iqtisadi gözləntiləri doğrultmayacağını nəzərə alsaq belə***

***Azərbaycanın bu prosesdəki uduşu danılmazdır. Bununla rəsmi Bakı Naxçıvana yeganə, Türkiyəyəsə daha bir alternativ çıxış əldə edəcək. Elə vaxtilə bolşevik Rusiyasının Qərbi Zəngəzuru Ermənistana verməkdə əsas məqsədi də Azərbaycanla Türkiyəni ortaq sərhəddən məhrum eləmək idi.***

***Məlumdur ki, Azərbaycanla onun ekslavı olan Naxçıvan Muxtar Respublikası arasında kommunikasiya xəttlərinin açılması 44 günlük müharibənin sonunda imzalanmış birgə bəyanatda da nəzərdə tutulmuşdu. Ancaq həmin bəyanatın bir sıra başqa müddəaları kimi buna da indiyədək əməl olunmayıb. Düzdür, həmin o ”bir sıra başqa müddəalar”dan, məsələn, ”Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir” müddəasından fərqli olaraq Zəngəzur dəhlizinin açılmasıyla bağlı bəndin icrasında rəsmi Moskvanın özü də maraqlıdı. Çünki bu bir tərəfdən Kremllə Anqaranın son illər getdikcə dərinləşən iqtisadi əlaqələrinin daha da inkişafına səbəb olacaq, digər tərəfdənsə Rusiyanın idarəçiliyində olan Ermənistan dəmir yolunun zərərlə işləməsinin qarşısını alacaq. Ancaq bütün bunlara rəğmən Üçtərəfli bəyanatdan keçən müddət ərzində baş verənləri diqqətlə incələyəndə məlum olur ki, onun buna sadəcə gücü çatmırdı. Putin, sadəcə olaraq, Paşinyanın çevik manevrlərinin əlində girinc günə qalmışdı.***

***Xatırladaq ki, Ukrayna avantürasından sonra total şəkildə küncə qısnanan Kreml üçün bu cür nəfəsliklərin əhəmiyyəti birə on qat artacaq. Əgər Putin Ukrayna böhranından başını və postunu tam itirməmiş çıxa bilsə Zəngəzur dəhlizinin açılmasında israr edəcək və bundan ötrü Yerevana ciddi təzyiqlər göstərəcək. Yerevanın həmin təzliqlərə duruş gətirmək imkanlarısa müharibədən sonrakı Putinin gücünə adekvat olacaq. Hərçənd, həmin dəhlizin açılması təbii mühasirə şəraitində olan Ermənistan qədər heç kimə sərfəli deyil. Ancaq ermənilərin, xüsusilə onun elitasının düşkün təbiətindən, aşırı millətçilik mərəzindən yoğrulmuş xəstəhal xisləti bunun gerçəkləşməsinə heç cür imkan verməyəcək.***

***Bəzi rus ekspertləri ölkəsinin və imzasının şərəfini öz satellitindən belə qoruya bilməyən prezidentlərinin zədələnmiş imicini xilas eləmək üçün ortalığa belə bir tezis atıblar ki, İrandan keçən dəhliz Zəngəzur dəhlizinə alternativ olsa da onu əvəz eləmir, odur ki, Zəngəzur yolu mütləq açılacaq. Bu ”alternativ olsa da, əvəz eləmir” kəlamındakı məntiqsizlyi qoyaq bir kənara, heç olmasa təxmini də olsa bilmək olarmı nə vaxt açılacaq? Təəssüf ki, bu sualın cavabı hələlik heç kimə məlum deyil. Üstəlik, Tehranla son anlaşma daha bir cavabsız sualı da aktuallaşdırdı: ”hansı pulla?” Ermənistanın yoxudu, olsa da verən deyil, Rusiyanın başı öz hayında, Azərbaycana da artıq bir dəhliz kifayət edir.***

***Bundan sonra biz Laçın dəhlizinin ləğvinə köklənməli, ən azından intensiv olaraq bu məsələni həm Rusiya, həm də Qərblə bütün səviyyələrdə gedən müzakirə və danışıqların predmetinə çevirməliyik. Düzdür, Üçtərəfli bəyanatda Laçın dəhlizinin statusu birbaşa kommunikasiya məsələsinə bağlanmır. Amma ortada bəyanatın əməl olunmayan başqa bəndləri varsa, qoy onda biri də artıq olsun. Nəticəsindən asılı olmayaraq hər fürsətdə bu tələblə üstlərinə gedib ürək bulandırmaq, kürklərinə birə salmaq lazımdır. Katonun Karfagen məhv edilməlidir ritorikasın uyğun olaraq Laçın dəhlizi ləğv olunmalıdır şüarı bütün səviyyələrdəki görüş və müzakirələrin leytmotivinə çevrilməlidir. Divin canı şüşədə oduğu kimi ermənin də canı həmin dəhlizdədir.***

***Rusiya-Ukrayna müharibəsi artıq elə bir qeyri-müəyyən mərhələyə qədəm qoyub ki, prosesin bundan sonra necə inkişaf edəcəyini və hansı sonluqla bitəcəyini proqnozlaşdırmaq çox çətindir. Hazırda Rusiya da öz başının hayındadır. Putinin sönmək bilməyən imperiya ehtirasları bu ölkəni çıxılmaz quyunun dibinə saldı, onu nə irəli, nə də geriyə yolu qalan dar dalana dirədi. Janrın tələbləri baxımından indi o növbəti çalxalanmalar və böyük sarsıntılar ərəfəsində olmalıdır. Hərçənd, tarixi təcrübə göstərir ki, bu ölkədə permanent olaraq baş verən hər belə çalxalanma və sarsıntıdan sonra dünya daha qəddar bir Rusiya ilə üzbəüz qalır.***

***Odur ki, belə həssas bir dönəmdə hadisələrin bütün inkişaf variantlarına, ən əsasısa, post müharibə dövrünün Rusiyaya gətirəcəyi xaosa və ya daha sərt diktatura rejiminə hazır olmalıyıq. Qarabağdakı bəzi yarımçıq işlərimizin tamamlanması üçün sayıqlığımızı qorumalı, bütün fürsətləri məqamında dəyərləndirməyə hazır olmalıyıq.***

***P.S.** Yeni nəqliyyat dəhlizinin marşrutunasa həm də mistika kimi yanaşmaq lazımdır. Biz faktiki olaraq Azərbaycan ərazisindən Azərbaycan ərazisi vasitəsiylə Azərbaycan ərazisinə gedəcəyik ki, belə möhtəşəm Azərbaycan üçbucağının gətirdiyi mənəvi təsəlli hər cür maliyyə-iqtisadi mənfəətlərdən qat-qat önəmlidir. Çünki bu üçbucaq gələcək birliyin müjdəsi də ola bilər.*



*Faiq QİSMƏTOĞLU*
*faiqqismetoqlu@box.az*

# Müəllim və əsgər gələndə...

**...Biz görmüşük ki, həmişə vəzifəli şəxslər, xüsusən də nazirlər, icra başçıları, hüquq-mühafizə orqanları rəhbərləri bir məclisə girəndə hamı ayağa qalxır və onları hörmətlə qarşılayır.**

**Belə baxanda burda heç bir qəbahət yoxdur. Amma sadəcə olaraq əksər adamların onlara işi düşdüklərinə görə və gələcəkdə nəsə bir addım atacaqlarını bildikləri üçün bu münasibəti sərgiləyirlər. Allaha and olsun bu münasibətlərin heç biri səmimiyyətdən yaranmır. Ya qorxudan, ya da kiminsə işinə yararlanmaqdan qidalanır...**

**Mənim bir qohumum vardı. Yüksək vəzifədə işləyirdi. Məclisə girəndə hamı ayağa qalxırdı. Amma tək mən heç vaxt ayağa qalxmırdım. O da mənə baxmadan gedib yuxarı başda əyləşər və ətrafındakı ”quş götürənlərə” baxıb qürrələnərdi. Hiss edirdim ki, yəni, bildirmək istəyir ki, sən kimsən, görürsən hamı mənim ətrafımda əyləşib?! Çox da ki, mən gələndə ayağa qalxmısan. Bax, qohum-əqrəbanın hamısı mənim yanımda əyləşib. Hətta altdan-altdan məni süzərdi və bir dəfə də olsun ona sarı baxmazdım...**

**Sonradan vəzifədən çıxardılar, ətrafına toplaşan adamların heç biri onun yanında olmadı. Məclisə girəndə onu gördüm. Amma yenə baxmayıb keçib başqa yerdə əyləşmək istəyəndə özü məni səslədi. Dedi ki, müəllim, çox səhv eləmişəm.**

**Sənin kimi ziyalının yanında yox, gedib elə dələduzların ətrafında oturmuşam. Onlar da milçək şirəyə gələn kimi mənim yanımdan əl çəkmirdilər. Görürsən, indi biri də yoxdu? Mən də bir söz deməyib gəlib oturdum yanında və dönə-dönə üzr istədi.**

**Mən də dedim ki, biz qohumuq, atalarımız da uzun müddət dost olub, üzr istəməyə də ehtiyac yoxdur. Axı sən filankəsin oğlusan. Gərək adamları tanımalı idin...**

**Nə isə. Keçək əsas mətləbə. Ola bilər məclisə kimsə girəndə dağdan ağır kişi olsun, el ağsaqqalı sayılsın, qan barışdırsın və camaat da onu görəndə ayağa qalxsın. Çünki belə adamlara vəzifəsinə görə yox, kişiliyinə, mərdliyinə, qeyrətinə görə hörmət edirlər. Bax, bizim kənddə belə kişilər var və onlar barmaqla sayılır.**

**Mənim düşüncəmə görə, biz hamımız iki şəxsin qabağında ayağa qalxmalıyıq. Biri müəllimdi, biri də əsgər. Müəllim bizə elm öyrədir, tərbiyə verir, düz yol göstərir. Əsgər isə vətəni, torpağı və ən nəhayət bizi qoruyur. Biz bunu böyük Qarabağ savaşında 44 günlük mücadilədə bir daha hiss elədik.**

**Hiss elədik ki, müəllimlərin tərbiyə etdiyi, elm öyrətdiyi, yol göstərdiyi əsgərlər ya şəhid oldu, ya qalib oldu, ya da qazi oldu. Bundan artıq əsgər nə etməlidir?**

**Amma biz neynirik?! İctimai yerdə, xeyirdə-şərdə, avtobusda, metroda müəllim görəndə, əsgər görəndə heç tükümüz də tərpənmir. Əyləşdiyimiz yerdən qalxıb o müəllimə, o əsgərə yer vermək istəmirik. Heç olmasa, o müəllim, o əsgər məclisə girəndə verdiyi salamı da ürəkdən almağa can çəkirik.**

**Amma elə ki, bir imkanlı adam, pullu insan məclisə daxil olur, tamadadan tutmuş mollaya qədər hamı ayağa qalxır və onu hörmətlə qarşılayır. Və bir müddətdən sonra görürük ki, 200 minlik maşınla məclisə gələn və özünü yekə-yekə aparan o adamı narkotika alveri etdiyinə görə yaxalayıblar. Görün biz kimlər məclisə girəndə ayağa qalxırmışıq?! Hələ mən başqalarını demirəm...**

**”Tütək səsi” filmində çox maraqlı bir epizod var. Böyük Vətən müharibəsində əksər insanlar döyüşə gedərkən həlak olur.**

**Gündə kəndə ”qara kağız” gəlir. Filmin sonundakı epizod o qədər orijinaldır ki, adamın tükləri biz-biz olur. Kimsə deyir ki, bəs kəndə əsgər gəlir. Hamı axışıb o əsgər gələn tərəfə gedir. Hətta oğlanlarından ”qara kağız” alanlar da ümid edir ki, qayıdan onların oğludu. Elə film bu nikbin sonluqla da başa çatır...**

**Sözümün canı odur ki, ona görə əsgər məclisə girəndə ayağa qalxmalıyıq ki, onlar həm də özləri ilə şəhidlərimizin, qazilərimizin, qaliblərimizin ətrini, qoxusunu bizə gətirir. Ərinməyin və usanmayın. Məclisə müəllim və əsgər daxil olanda hamınız ayağa qalxın! Çünki bununla biz millət və xalq yolunda şəhid olan müəllimlərə və əsgərlərə bir daha sevgimizi göstəririk.**

**Bu sevgi ötəri yox, əbədi olmalıdır. Nə vaxta qədər ki, Azərbaycan var, o vaxta qədər də müəllim və əsgər bir günəş kimi bu xalqın başının üstündə nur saçacaq. Bax, biz o nuru qorumalıyıq!...**

# "ABŞ Avropanı Rusiya neftindən xilas edə bilməyəcək"

**Siyasi şərhçi Tural İsmayılovun Adalet.az-a bildirdiyinə görə Rusiya-Ukrayna qarşıdurmasında Çin Qərbdən fərqli olaraq müxtəlif yanaşma sərgiləyir.**

”Çin Rusiyanın sanksiyalardan qorxmayacağını maraqlı əsaslandırır.Ümumiyyətlə, Rusiya-Ukrayna qarşıdurmasının ilk günlərindən Çin maraqlı tatktika seçib. Bu taktika ənənəvi Çin uzaqgörənliyinin iki komponentində özünü göstərir:Çin Rusiyanın həddən artıq güc və söz sahibi olmağını istəmir.Çin eyni zamanda başa düşür ki, zəifləmiş Rusiya da NATO və ABŞ-ın Asiya coğrafiyasında təsir dairəsinin genişlənməyinə səbəb ola bilər.Elə Çinin ən güclü media təsisatlarından olan ”Global Times” da tez-tez yazır ki, ABŞ Rusiyanın neftindən Qərbi `qurtara bilməz`”.



Politoloqun fikrinə görə ABŞ Avropanı Rusiya neftindən xilas edə bilməyəcək. Rusiyaya qarşı sanksiyalar Avropaya zərər verməklə dayanmayacaq, hətta digər ölkələr müqavimət göstərəcək.

”Bayden neft qiymətlərinin bahalaşmağından narahatlıq hiss edir. Hətta BƏƏ və Səudiyyənin rəhbərliyi ilə neft qiymətləri ilə bağlı onlayn konfrans da keçirməyə cəhd etdi. Hətta iş o yerə çatıb ki, ABŞ uzun illərdir ona biət etmir deyə hər yerdə sıxışdırdığı Venesuela rəhbəri Maduro ilə də Venesuela nefti üçün danışıq aparmaq istədiyi siqnalları verir.

Çin nəşrləri yazır ki, Rusiyaya qarşı hazırkı transatlantik ittifaq təkcə Avropaya zərər verməyəcək , həm də digər ölkələr buna müqavimət göstərəcək. Görünən odur ki, Bayden Rusiyanı qınamaqla Avropanı guya ətrafına toplayıb, amma əslində Avropa ölkələri ümidsiz şəkildə əl-ayağı bağlıdırlar. Rusiya baş nazirinin müavini Aleksandr Novak boşuna demirdi ki, Rusiya neftindən imtina dünya bazarı üçün fəlakətli nəticələrə gətirib çıxaracaq və qiymətlərin bir barel üçün 300 dollara və ya daha çox artmasına səbəb olacaq. OPEK -in baş katibi Mohammed Barkindo da belə bir fikir bildirib ki, neft bazarındakı mövcud vəziyyət onu göstərir ki, ölkələr dünya enerjisini öz siyasi və digər fikir ayrılıqlarının girovuna çevirməməlidir.

Beləliklə, Ukrayna Qərbdən istədiyi fədakarlığı ala bilmir, bu da Ukraynanın Qərb təsisatları ilə gələcək əməkdaşlıq ehtimalları üçün də ciddi bir küskünlük yaradır. Çin isə bütün bu hadisələrdən ən sərfəli siyasi və iqtisadi maraqları təmin olunmuş vəziyyətdə öz sükutunu qoruyur.”

**Emin**

## *Göyün qiyməti üç qəpiyə*



**Bu gün rayon yerlərində, daha doğrusu kəndlərdə istənilən qədər tərəvəz məhsulları əkilib-becərilir. Sabirabadlı fermerlər deyirlər ki, sahədə bir göyün dəstəsini üç qəpikdən artıq sata bilmirik. Çox nadir halda onu beş qəpiyə alan tapılar.**

Qəribə də olsa deyəcəyik: Əziyyət çəkən qalır qıraqda, heç bir zəhməti olmayan adam həmin göyləri gətirib Bakı bazarlarında 15-20 qəpikdən aşağı satışa çıxarmır. Deməli, ilboyu torpaqla əlləşən, tər tökən və əziyyət çəkən adam 3 qəpik, 4 qəpik qazanır, heç bir əziyyəti olmayan isə 15 qəpik pul əldə edir. Bax, belə yerdə ataların bir sözü yadımıza düşür: ”Kim qazana, kim yeyə”. Əziyyət çəkən, əli qabarlı kəndli olur, kef görən o məhsulu alıb Bakı bazarlarında satan alverçilər.

## *Deyirlər, hər şey bahalaşacaq*



**Onsuz da belə baxanda son 6-7 ayda çox şeyin qiyməti nə az, nə çox 50-60 faiz qalxıb. Hətta elə məhsullar var ki, onların qiyməti 100 faizə yaxın yüksəlib. İndi də Rusiya-Ukrayna müharibəsi ilə əlaqədar olaraq qıtlığın yaranacağını bütün qida, ərzaq və sənaye mallarının qiymətinin qalxacağını bildirirlər. Heç uzağa getməyək, müharibə başlamamışdan əvvəl bir kub taxtanı 250-300 manata satırdılar. İndi isə həmin taxtanın bir kubu 450-500 manata satışa çıxarılır. Satıcılar da bunu onunla izah edirlər ki, Rusiyadan taxta gəlmədiyinə görə hər şey qalxıb.**

Bax, onda görün bir aydan sonra xaricdən aldığımız və xüsusən də Rusiyadan ölkəyə idxal olunan məhsulların qiyməti nə qədər qalxacaq. Müxtəlif yağlar, şirniyyat məhsulları, ət məmulatları, kolbasalar, qarabaşaq, makaron, düyü neçəyə olacaq, bax, onu bilmək olmur. Ona görə də alıcılar bu gün ticarət mərkəzlərində, marketlərdə un, şəkər tozu, yağ və digər ərzaq mallarını almaqda davam edirlər. Hətta elə adam var ki, qıtlıq yaranacağından qorxub həmin məhsulları kisələrlə alır.

**Emil FAİQOĞLU**

## *ABŞ Ukraynaya PUA-lar verə bilər*

**Bayden administrasiyası Ukraynaya tank və artilleriya əleyhinə ”Switchblade 300” və ”Switchblade 600” PUA-ları verməyi düşünür. Bu barədə NBC məlumat yayıb.**

Məlumata görə, bu PUA-lardan birincisi şəxsi heyətə dəqiq zərbələr endirmək üçün, ikincisi isə tankların və digər zirehli texnikaların məhv edilməsi üçün nəzərdə tutulub. ”Dronlar Ukraynaya milyard dollarlıq hərbi yardımın göstərilməsi çərçivəsində veriləcək. Konqresdəki iki mənbə bildirib ki, hələlik heç bir qərar verilməyib, lakin Ağ Ev bu ideyanı nəzərdən keçirir. Prezident Co Baydenin bu gün bu məsələni müzakirə edəcəyi gözlənilir”, - kanal bildirib.

**MEHRİBAN**

# Erməni mediası "yalan maşını"nı işə saldı

**"Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində guya gərginliyin yaranması barədə Ermənistan sosial şəbəkələrində yayılan xəbərlərin heç bir əsası yoxdur və təxribat xarakteri daşıyır. Bildiririk ki, hazırda bütün istiqamətlərdə vəziyyət sabitdir və Azərbaycan Ordusu bölmələrinin nəzarətindədir"".**

Bəli, Azərbaycan Müdafiə Nazirliyi dəfələrlə açıqlama verməsinə baxmayaraq Ermənistan yenə də öz təxribatçı məlumatlarını yaymaqdadır.

Bəlkə də 10 gündən artıqdır ki, erməni mediası Qarabağda ermənilərin sıxışdırılması, onlara qaz, su, işıq verilməsində əngəllərin olması barədə haray-həşir salır. Əvvəl adı gedən xətlərdə qəza olduğunu , sonra isə təxribat nəticəsində qəsdən qəza törədildiyini yazdılar. Əlbəttə ki, erməniləri 100 ildir tanıyırıq və onların necə yalançı, böhtançı olduğunu bilirik! Və onu da bilirik ki, qüdrətli ordumuz Qarabağda öz vəzifəsini layiqincə yerinə yetirir, torpaqlarımızı göz-bəbəyi kimi qoruyurlar.



Bu isə erməniləri narahat edir, ordumuzu gözdən salmaq üçün ağızlarına gələn yalanları yazırlar. Erməni mediası növbəti dəfə böhtan maşınını işə salıb.

Adalet.az böhtan istehsal edən erməni mediasına istinadən bildirir ki, guya Qarabağın sülhməramlıların nəzarətində olan hissəsindəki Xocalı rayonunun Pirlər (Xramort) kəndinin əhalisi köçürülür.Bunu da erməni mediasına kim xəbər verib, Ermənistandakı ermənilərdən daha çox nankor və yalançı olan qondarma rejim nümayəndələri- Arayik Artyunan, Vitali Balasanyan, David Babayan, Artak Beqlaryan və digər separatçı-terroristlər...

Yalançı məlumatda qeyd olunub ki, kənd əhalisinin bir hissəsi - uşaqlar, qocalar və yaşlılar kənddən çıxarılıb.

Qeyd edək ki, Pirlər - Azərbaycan Respublikasının Xocalı rayonunun inzibati ərazi dairəsində kənddir. Əvvəlki adı Xramort idi. 1993-cü ildən Ermənistan Silahlı Qüvvələrinin işğalı altında olub. 5 oktyabr 1999-cu ildən dəyişdirilərək Pirlər adlandırılıb. Oykonim Xram (yarğan) və art (arxa tərəf, aşırım) komponentlərindən düzəlib, "yarğanın arxa tərəfi" deməkdir. Kənd dağ ətəyi ərazidə yerləşir.

2005-ci ildə Dağlıq Qarabağda keçirilən əhalinin siyahıyaalmasına əsasən Pirlər kəndinin əhalisi 403 nəfər təşkil edirdi. İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən imzalanmış 10 Noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq Pirlər kəndi Rusiya Sülhməramlı qüvvələrinin nəzarətinə keçib.

***P.S.** Bütün dünya bilir ki, biz elə iş görmərik, əgər elə iş görmək istəsək elə birinci 130min erməni yaşayan Bakıdan başlayarıq.*

**Əntiqə Rəşid**



Əbülfət MƏDƏTOĞLU

# Vağzallar - ayrılıqların ünvanı...

### Vaqif Bayatlı Odərin bir şeirlərinin işığında

**Mənə elə gəlir ki, İnsan adlı bəşər övladı Yer üzündə özünü təsdiq edən andan ta bugünə qədər hərəkətdədi. Həm cismani, həm də ruhui baxımdan... Bir yerdə ki, hərəkət oldu, deməli, burada həyat da var, dəyişmələr də, yeniləşmə, hətta dağıntılar da... Bu mənada insanın hərəkətlərinin başlanğıc nöqtəsi də, təbii ki, olur. Bu başlanğıc ana bətnindən başlayaraq sonda ruhun bədəni tərk etməsinə qədər davam edir. Deməli, insan öz hərəkətini gah düşünülmüş, gah da xaotik olaraq nizamlayır. Bax, ən önəmlisi elə bu yazım üçün həmin o düşünülmüş hərəkətdi.**

Biz bütün hərəkətlərimizin düşünülmüş cədvəlini quranda adətən orada bir nöqtəni də ya qaralayırıq, ya qızardırıq. Burda rəngin iki mənada önəmi var. Qırmızı rəng, necə deyərlər, qanı ifadə etdiyindən deməli, qan qovuşmaq deməkdir. Bax, o qovuşma da kiminsə dönüşüdü, gəlişidi, qarşılanmasıdı. Bu da sirr deyil ki, görüşlər daha çox özündə sevinc əks etdirir, sevinc daşıyıcısı olur. Hətta gözlərdən axan da sevinc yaşı kimi dəyərləndirilir...

Qara rəng böyüklük olsa da, böyüklük yozumuna daha çox uyğun gəlsə də, amma o göz yaşını - özü də acısını, ayrılığı, həsrəti, qiyaməti, fəlakəti, zülməti, itirməyi özündə təsdiqləyir... Deməli, hər iki rəng bir ünvanda - vağzallarda daha çox qarşımıza çıxır. Biz axı vağzallara həmişə tələsirik - yola salmağa da...qarşılamağa da!..

Bəli, mən elə bugünlərdə vağzalların önəmini bir daha köynəyimdən, ruhumdan keçirtdim. Çünki səfərə getdim, dost ziyarətinə, doğma olan, ürəyimdə yaşayan ünvanları görüb sevinməyə, təzələnməyə tələsdim. Şükürlər ki, bu görüşlər bütün çalarları ilə həm varlığıma hopdu, həm də qələmimə, sözümə. Və elə Söz demişkən, bu gün səhər-səhər ağlıma bu misralar gəldi:

*Sən indi səmada - Allaha yaxın,*
*Mən isə diz üstə dua edirəm...*
*Ruhum aşıb artıq, ayrılıq dağın -*
*Mən sənə qoşulub, uçub gedirəm...*

Bəli, elə bu ovqatın içində bir də gördüm ki, qarşımdakı kitabı vərəqləyirəm. Vaqif Bayatlı Odəri oxuyuram. Ruhuma, könlümə az qala su kimi çilənən misraların işığında vağzala gəlib çıxıram. Bu vağzal yola saldığım, qarşıladığım vağzalların eyni olmaqla yanaşı, həm də indi mənim olmaq üçün can atdığım, lakin ola bilmədiyim vağzaldı. Vaqif Bayatlı Odər yazır ki:

*Böyük şəhərlərin yanında*
*Başqa bir şəhər kimidi təyyarə vağzalları.*
*Bezəndə, darıxanda şəhərdən*
*Çıxıb gedərəm ən yaxın göyə -*
*təyyarə vağzalında gecələməyə.*

Doğrudan da bəzən adam elə bir durumda olur, elə bir nöqtəyə gəlib çıxır ki, hətta özündən də bezir, yorulur, yaşamaq, var olmaq onun üçün əhəmiyyətini itirir, mənasızlaşır. Onda nə isə etmək, nəyi isə vurub dağıtmaq və yaxud da hardasa özünə əl qaldırmaq da istəyirsən. Lakin... Köməyinə vağzallar çatır. Yaxşı yadımdadı, tələbə vaxtlarımda semestr imtahanları arasında yorulanda, darıxanda yataqxanadan çıxıb piyada dəmiryolu vağzalına tərəf gedərdim və gəzərdim peronda. Sanki kimisə qarşılayacam, sanki kimisə yola salacam. Təbii ki, onda nə qarşılayacağım vardı, nə də yola salacağım. Heç məni də qarşılayıb yola salan yox idi onda. Amma... gedirdim vağzala, ayaqlarım çəkib aparırdı məni ora. Bu yerdə yenə Vaqif Bayatlı Odər deyir ki:

*Gərək bağışlasın Bakı şəhəri,*
*Vağzal göyündən uzağa getməyə*
*imkanım yox,*
*Gərək bağışlasın Bakı polisi,*
*yan qoyub təyyarəçi papağını*
*ayaqyalın dolaşmaq keçir könlümdən*
*göyləri.*

Əslində bu, mənim də könlümdən keçir. Çünki çıxış yolu nə isə etməkdədi. O, "nə isə" deyilən isə bəlkə də bir şair dəliliyi etməkdi. Ayaqyalın, başaçıq, yaxası da sökülüb-tökülmüş, saçları pırpız... dərviş sifətində gəzib dolaşmaq, ətrafdakıların min yozumlu baxışları altında özünü, yəni, içini rahat etmək... Bu rahatlığı da ancaq göy üzünü ayaqyalın gəzməklə tapmaq olar.

Mən vağzallarla bağlı düşüncələrimi şeirə çevirəndə bir xatirə də tutdu yaxamdan… Hələ öncəki illərdə yazmışdım ki:

*Vağzalda...*
*lap dəqiqi*
*perronda dayanmışam...*
*Qayğılı,*
*tüstülənən siqaretimlə tək...*
*Bunu yazmıram ki,*
*oxusunlar, acısınlar...*
*ya da sən oxu*
*fikir çək...*
*Sadəcə*
*istəyirəm ki,*
*özümü*
*möhkəm tutum*
*və qəhəri unudum!*
*Çünki,*
*yola salan yoxdursa,*
*qarşılayan da olmayacaq*
*demək!*

**Misraları oxuyanda sizin nə düşünəcəyinizi təxmin etmək mənə heç də asan gəlmir. Amma içimdə bir əminlik var ki, aranızda mənlə həmfikir olanlar tapılacaq. Odur ki, yerdəki vağzallarla göy üzündəki vağzalların arasındakı məsafəni ölçməyə çalışıram. Bu, ruhun səfər edəcəyi vağzalların arasındakı məsafədi. İnsan gec-tez o məsafəni qət etməyə məhkumdu. Lakin indiki anda mən tamam fərqli vağzalların sevdasındayam. O vağzalları ki, orda gözləyirəm...qarşılayıram. Elə bu ovqatla içimdə öz-özümə deyirəm. Bizim ayrılıqların ünvanı olan vağzallarla görüşlərimizin ünvanı olan vağzalların arasındakı yaşantını yaddaş kartımızda yaşatdıqca bir təsəlli, ümid ağacı da göyərtmiş oluruq. O ağacın adı da Görüşdü!**

# Maraqlı ömrün ünvanı

**Dünyanın min illərlə mövcud olduğu zaman yaşadığımız 70-80 illik ömür bir göz qırpımına bənzəyir. Və insan oğlunun vəzifəsi bu ömrü elə yaşamaqdır ki, adı sağlığında, həm də ondan sonra hörmətlə çəkilib, anılsın... Təbiət də bizə verdikləri fiziki qüvvəni, eləcə də ağlı, dərrakəni, düşüncəni son damlasına qədər geriyə almayınca əl çəkmir. Demək, səndən sonra ancaq qazandığın bir ad qalır. Əməllərinin, hərəkətlərinin, fikir və dərrakənin məhsulu olan quruca bir ad. Bu ad səndən sonra anılacaq, hörmətlə çəkiləcəksə, deməli ömrü boş yerə yaşamamısan.**

Belə götürəndə istənilən quruluş və zaman kəsiyində yaşamaq çoxları üçün çətindir. Çünki minbir xasiyyət və düşüncəli müasir insanın, səni əhatə edənlərin əhatəsində yaşamaq adamı bir çox ziddiyət və qayğının qucağına atır. Amma, hamı ilə ünsiyyət yaradıb, xoş əhval-ruhiyyədə yaşamaq o qədər də asan deyil. Hamıya qarşı xeyirxah olmaq da qeyri-mümkündür. Və əgər hamı ilə yol tapıb, isti münasibətdə olmaq da, mən deyərdim ki, zəiflik əlamətidir. Həddən artıq əzazil olub, insanlıqdan uzaq durmaq da, ümumbəşəri hisslərin, insanpərvərliyin fərddə rast gəlinməyən keyfiyyətlərin olduğunu təsdiqləyir.

32 il prokurorluq orqanlarında müxtəlif vəzifələrdə, o cümlədən 18 il qüsursuz şəkildə prokuror işləyən Adil Əsgərovun həyat və fəaliyyətindən bəhs edən "Ağrılı və şirinli günlərimin xatirələri" kitabı müəllifin keçdiyi keşməkeşli həyat yolundan və onunla yanaşı addımlayan, yaşayan müxtəlif xarakterli insanlar, bir az dəqiq desək ömür, həyat barəsində, yaxınlar, doğmalar, eyni zamanda əks tərəfi səciyyələndirən amillər barəsində müdrik müəllifin fikir və xatirələr toplusudur. Nə gizlədək, uzun müddət, özü də Şərq ölkəsi olan Azərbaycanda prokurorluq orqanlarında, həm də qüsursuz işləmək olduqca çətin məsələdir. Adətən bu sahədə tanışlıq, yaxınlıq, rəhbər vəzifələrdə işləyən çox da şəffaf olmayan məmurların




dediklərini yerinə yetirmək kimi, həqiqətdən uzaq, xahiş və addımların həyata keçirilməsi kimi neqativ hallar bu sistemə hakim kəsilir. Yəni burada çox təəssüf ki, rəhbər şəxslərlə birbaşa əlaqədə olaraq, haqq və ədalətdən yan keçib mənfi, neqativ amillərə qulluq edənlər daha böyük üstünlük təşkil edirlər. Haqq, ədalət prinsiplərinə vicdanla qulluq edənlər çox zaman heç də qəbul edilmir, onların mövqeləri daima elə həmkarları tərəfindən tənqid və təhdiq obyektinə çevrilirlər. Nəticədə əsl hüquqşünas qanuna (ilk növbədə vicdanının qanunlarına) əməl etmək, onun keşiyində durmaq problem xarakteri daşıyır. Mən deyərdim ki, nəfsi saxlamaq kimi böyük insani əhəmiyyət kəsb edən prinsipə üulluq etmək, heç də çoxlarına nəsib olmur. Bütün bunlara baxmayaraq, qürurla səslənən insan adını uca tutan, bu adı işdə, həyatda şərəf və ləyaqətlə daşıyan Adil Əsgərov həmişə, hər yerdə vicdanının səsisnə dərindən qulaq asaraq, həyatın keçməkeşli, uçurumlu yolları ilə gedərək, insan övladının dünyaya nə üçün və niyə gəldiyini heç zaman unutmur. Adil müəllim ilk növbədə insanpərvər milli dəyərlərə söykəndiyindən haqqın, ədalətin timsalında millətə qulluq edir. Həyatda aqil, müdrik, bilikli, insaflı olan Adil müəllim çalışdığı çətin sahədə həmişə adil olaraq qalır. Xeyirxah, rəhmdil, insanpərvər bir vətənsevər kimi, təkcə doğulub, boya-başa çatdığı Təzəkənd kəndinin, Kəbirli mahalının yox, Azərbaycanın layiqli, ləyaqətli övladı olaraq, yüzlərlə adamın dərin hörmətini qazanmağa nail olub.

Adil Əsgərovun "Ağrılı və şirinli günlərimin xatirələri" adlı kitabı dil, üslub, deyim tərzi, eləcə də oxucuya aşıladığı fikir, məna, məzmun və məfkurəsi ilə geniş və xeyirxah ürəkli bir insanın qəlbinin səsi, həzin pıçıltısı ilə örnək olacağı şübhə doğurmur. Çünki müəllif həqiqətləri, həyati gerçəklikləri şişirtmədən, süni bəzək vurmadan, sadə və yatımlı dillə qələmə alıb. Əlbəttə, dünyaya gəlmək çox da çətin deyil. Amma ulu Tanrının sənə bəxş etdiyi ömrü alnıaçıq, üzüağ, xeyirxah əməllərin sahibi kimi, həm də müxtəlif xarakter və amalı daşıyan insanlar arasında yaşamaq, sözsüz çox müşgül məsələdir. Amma ibrətamiz, eyni zamanda ehtiyac içərisində böyüyən və gözütoxluğa, həm də dərin və zəngin saf qəlbə malik olan Adil müəllimin həyat yolundan çoxlarının nümunə götürəcəyinə qəlbən inanırsan. Çünki müdrik bir insanın öyüd, nəsihət dolu bu kitabı geniş əhatədə böyük hörmət qazanan bir şəxsin bizlərə illərin sınağından çıxan və göz önündə canlandıra biləcəyimiz örnək həyat haqqında balladadır. Buna görə də bu kitabı oxuyan hər bir şəxs özü üçün yaxşı, müsbət nə isə götürəcəyinə, özününkü edəcəyinə mütləq şəkildə inanırsan.

Həyatın bir çox çətin mərhələsindın aclıq, qıtlıq, səfalət, kasıblığını görən, uşaqlıq və nisbətən gənclik illəri ehtiyacla daim təmasda olan Adil müəllim əli çörəyə çatanda, artıq vəzifə sahibi kimi ölkədə geniş tanınanda, yenə xeyirxahlıq carçısı olaraq qalır. Əsl kişi kimi işləyir və yaşayır. Məkrdən, xainlikdən, əzazillikdən, pislikdən, şərdən uzaq qaçır. Təmiz, mənalı, başqalarına örnək ola biləcək ömür sürür. Kimsəsizə dayaq olub, çoxlarının əlindən tutur, arxa olur. Vicdanının diqtə etdiyi, ona fərdi mənsub olan əqidə, amal, məslək və məqsəddən ayrılmır.

Gözəl insan, insanlığın pak üzünün aynası olan, uzun müddət prokurorluq orqanlarında rəhbər vəzifə daşıyan və eyni zamanda qüsursuz işləyən Adil Əsgərovun "Acılı və şirinli günlərimin xatirələri" kitabı müdrik öyüd, nəsihət, məsləhət verməklə bərabər xeyirə qulluq etmək, nəcib əməllərə sahib olmaq kimi əməlləri bizlərə aşılayır. Ömrün, həyatın, dünyanın hər üzünü içəridən və dərindən göstərərək, səcərəsinə, nəsil-nəcabətinə hədsiz hörmət bəsləyən, əcdadlarımıza, ulu babalarımıza sonsuz ehtiram göstərmək özü elə ən böyük milli, mənəvi dəyərdir. Çünki yaxınlarına, ətrafındakılara hörmət etməyən, el-obasına, millətinə layiqli övlad ola bilməz.

**Qəlbi, zəkası bilik, müdriklik, xoş əməllər, xeyirxahlıq yuvası olan Adil İsgəndər oğlu Əsgərovun bu nəfis və zəngin kitabının bir çox oxucunun daim masasının üstündə olacağına inanırıq. Ömrü ləyaqətlə yaşayan, cəmiyyətin dərdini həmişə öz şəxsi dərdindən daha yaxın tutan, insan adını şərəflə daşıyan müəlliflə mənəvi dəyər və zənginliklərə söykənən yeni, sanballı kitablar yazmağı arzulayar.**

**Adil MİSİRLİ**

Emin Piri

# Torpaq adamlar



*Torpaq çərşənbəsi...*

***Bəlkə yaşamdan, bəlkə də hislərdən, ya da genetikadan. Ən sevdiyim canlı olmayan, maddi bir şey varsa o da torpaqdır. Əslində mahiyyətcə elə ən canlımız odur. Ola bilsin şəhər uşağı olsam da kənddə doğulmağımın, yay tətilində kəndi o baş-bu baş ayaqyalın gəzməyimlə torpağı bədənimə çəkməkdən idi bu sevgi. Sonra səngər həyatı, torpaq altında blendaj evim.***

***Sonra kənd yerlərində müəllimlik...***

***Sonrasa bildiyiniz... torpağı bürünmək, torpağın yeri gələndə yorğanın, yeri gələndəsə qoruyucu- branjiletinə çevrilməsi.***

***Torpaqdan doğulmuşuq...***

***Elə ən sevdiyim ətirlər də torpaq ətirləridi. Təndir ətri, biçənək ətri və yağışdan sonra torpaqdan yayılan ətir...***

***Bir də sevdiyim adamlar var, torpaq adamlar. Məsələn, sevdiyim qıza təndir ətirlim deməyi sevirəm. Müraciət kimisə, torpaq qız, ya da torpağım. Sevirəmsə, bunu deyirəm.***

***Səninçün torpaqlaşan adamlar olur. Elə torpağı da o adamlara görə sevirik.***

***Bayramınız mübarək, torpaq adamlar!***

## Aydakı foto

**Çarlz Dyuk kosmosda ümumilikdə 265 saat 51 dəqiqə vaxt keçirib. Bütün bu uçuşlar üçün hazırlıq prosesində o, ailəsindən uzaqda idi və uşaqlarının üzünü çox az görə bilirdi.**



**"Apollon 16" missiyası ilə Ay səthinə enmədən əvvəl Çarlz uşaqlarını həvəsləndirmək üçün onları da Aya aparacağına demişdi.**

Beləliklə, 1972-ci ildə Çarlz uşaqlarının və həyat yoldaşının olduğu fotonu özü ilə Aya aparır və fotonu Ayın səthinə qoyur. Fotonun arxasında belə yazılıb:

"Bu, 20 aprel 1972-ci ildə Aya enən Dünya planetindən astronavt Çarlz Dyukun ailəsidir."

**Həmin hadisədən 50 il keçib. Çarlz Aydakı temperatur fərqinə görə fotonun artıq solmuş halda olduğunu düşündüyünü bildirib.**

**Eminquey**

## Uludağ - Türkiyənin ən əhəmiyyətli qış idman mərkəzlərindən biridir

**Uludağ Türkiyənin Bursa şəhərinin cənub-qərbində, şəhər mərkəzindən 36 km uzaqlıqda yerləşir. Türkiyənin ən əhəmiyyətli qış idman mərkəzlərindən biridir. Zəngin florası və müxtəlif heyvan növləri ilə 1961-ci ildə Milli Park elan edilən Uludağ bütün il boyu ziyarətçiləri qəbul edir. Dağda xüsusilə yay aylarında trekking və kempınq təcrübələri də çox populyardır. Qədim dövrlərdə Uludağın adı "Həmişə parlayan" mənasını verən Olympos Misios olub və mifologiyaya görə bu təpə tanrıların Troya müharibəsini seyr etdiyi yer olub. Bir çox festivala və tədbirə ev sahibliyi edən Uludağ mərkəzdə yerləşdiyi üçün "heli-ski (vertolyotla xizək sürmə), snowbord, buz konkisi və snowbiking" (qar velosipedi) üçün də çox uyğun parkurlara malikdir.**



Adalet.az-ın verdiyi məlumata görə, Uludağ qərbi Anadolunun ən hündür dağıdır. Qara təpə adlanan zirvəsinin hündürlüyü 2543 metrdir. Cənub-cənub qərb küləklərinin hakim olduğu mülayim iqlimə malik olan Uludağ sıx meşələrlə örtülüdür. Xizək sahəsinin hündürlüyünün 1750 metr ilə 2543 metr arasında olduğu Uludağda xizək sürmək üçün ən ideal mövsüm dekabr və mart aylarıdır. Uludağ xizək mərkəzi iki ayrı ərazidən ibarətdir. Birinci ərazidə 17-si dövlət, 19-u özəl olmaqla, ümumilikdə 10 min çarpayılıq 36 mehmanxana və istirahət obyekti, 1986-cı ildə turizm mərkəzi elan edilən ikinci ərazidə isə dörd mehmanxana var. Bu iki ərazi həm də butiklər, restoranlar, kafelər, barlar, əyləncə yerləri və sağlamlıq mərkəzləri baxımından çox zəngindir.

Xizək mərkəzində xizək avadanlıqlarını icarəyə götürmək və təcrübəli təlimatçılardan dərs almaq da mümkündür. Ərazidə səkkiz telesiyej, yeddi T-bar (teleski) və 13 müxtəlif xizək pisti var.

## 29 illik məşhur həbsxana, qaçan 36 məhbus, "isti su"...



**ABŞ-ın Kaliforniya ştatında, San Fransisko şəhərinin yaxınlığında yerləşən Alkatraz adasında olan eyni adlı bu həbsxana 1934-cü ildən 1963-cü ilə kimi fəaliyyət göstərib. Həbsxana yüksək təhlükəsizlik qaydalarına sahib olub.**

Alkatraz həbsxanası o dövrdə məhbusları isti su ilə təmin edən yeganə həbsxana idi. Bu "bomba" şəraitin məqsədi həbsxanadan qaçan məhbusların üzməyə çalışarkən San-Fransisko körfəzinin soyuq sularına tab gətirə bilməməsi üçün idi. 29 illik fəaliyyəti dövründə həbsxanadan 14 dəfə qaçış cəhdi olub. Bu cəhdlərdə cəmi 36 məhbus iştirak edib. Həmin məhbuslardan 23-ü tutulub, 6-sı öldürülüb, 2-si boğulub və digər 5-i itkin düşmüş hesab edilir.

**Eminquey**

# Feminizm, amma daha bizimki kimi yox...

**Azərbaycanda feminizm deyiləndə ilk növbədə beş-an "qadın"ın, LGBT üzvünün bir yerə yığışıb əksəriyyəti gic-gic şüarlardan ibarət olan plakatlarla dolu aksiya ağıla gəlir.**

Çox təəssüf.

Halbuki feminizm hərəkatlarına nəzər salaq, çox vacib hərəkatların olduğunu görərik. Məsələn, 1830-1910 illərdə ABŞ-da başlayan, elə indi də bütün dünyada önəmli sayılan qadın işçilərin hərəkatı kimi.

Bu hərəkatların yaranmasında dünyanın fərqli yerlərində başlayan azmaaşlı muzdlu işçi qadınların hərəkatlarının da böyük rolu var. Onlar yaşayış minimumunun artırılması uğrunda mübarizə aparırlar.

Daha sonra bərabər siyasi hüquqlar, qadınların seçki hüquqları, ABŞ-da, Fransada, İngiltərədə, həmçinin Afrika və Yaxın Şərqin müxtəlif yerlərində baş verən sufrajist hərəkatları da feminizmin inkişafında həlledici rol oynayıb.

Hazırda əhəmiyyətli sayılan qollardan biri də xırda fermerlerin feminist hərəkatı "Via Campesina"dır. Bu gün bütün dünyada xırda fermerlərin əksəriyyəti öz ailələrini dolandıran və dəstəkləyən qadınlardır. Onların apardıqları "ərzaq suvereniteti" uğrunda kampaniya ərzaq istehsal edən şirkətlərə qarşı böyük güc sayılır.

Kampaniyanın lideri, zimbabveli Elizabet Mpfou deyir ki, 70 milyonluq fermer qadınlar bütün dünyanı yedizdirə, qlobal aclığa Ümumdünya Bankı və Beynəlxalq Valyuta Fondunun bütün yalançı layihələrindən daha tez son qoya bilərlər. Bu qadınlar özlərini "motherist campaign" adlandırırlar və xırda fermerlərin torpaqlarının, ətraf mühitin qorunması, bənd tikintilərinin qarşısının alınması uğrunda mübarizə aparırlar.

Feminizm hər zaman bütün dünyada çətinliklərlə, əngəllərlə üzləşib. Feminist hərəkatlarının ən böyük problemləri siyasi qeyri-bərabərliklə bağlı olub: bir çox ölkələrdə qadınlar XX əsrin ortalarına qədər səsvermə hüququndan məhrum edilmişdilər.




***Birinci, səsvermə hüququ olmadan onların səslərini dinləyən dövlət xadimlərini seçmək çətin idi.***

***İkinci, qadınlara həmişə kişilərdən daha az məvacib ödənilirdi və bu fakt indi də dəyişməz qalır. İqtisadi çatışmazlıqlar ucbatından qadınlar öz mübarizələrində qalib gələ bilməzdilər və müttəfiqlərə ehtiyacları vardı. Üçüncü problem isə qadınlara qarşı zorakılıqdır. Cinsi zorakılıq həmişə qadını susdurmanın bir üsulu kimi istifadə olunub. Polis və ordunun qadınlara heç vaxt əl qaldırmadığı barədə fikirlər doğru deyil. Afroamerikalı fəal Fanni Lu Zamrini dərisi göyərənə qədər döymüşdülər.***

***Dördüncü vacib faktor isə odur ki, feminizm ABŞ-da da, dünyanın başqa yerlərində də hələ də kinayə obyektidir. Feministləri cilovda saxlamağa çalışır, onlara təhqiramiz ləğəblər verilir, kişiyə bənzədikləri deyilir və frigidlikdə ittiham olunurlar.***

Vacib məsələlərdən biri də - feminist hərəkatlarının bölünməsidir.

Feministlərin liderləri tez-tez qadınlar arasında fikirayrılığına səbəb olan səhvlərə yol verirlər. Məsələn, orta təbəqədən olan ağdərili qadınlar hesab edirdilər ki, onlar qara, sarıdərili, lesbiyan, yoxsul qadınlardan tamamilə fərqlənsələr də, nədənsə onlarla eyni problemləri yaşayırlar. Qadınlar səsvermə hüququ alandan sonra Qadınların Milli Partiyasının yaradıcı Elis Pol, cənubda səsvermə hüququ ala bilməyən qaradərili qadınların hücumlarına məruz qalmışdı. Qaradərili olduqlarına görə, 1920-ci ildə onların bu hüququ təmin olunmamış, qadınların milli partiyası isə onlara yardım göstərməkdən imtina etmiş, bunu qadın yox, irqi problem hesab adlandırmışdı. On illiklər sonra Betti Fridan Qadınlar Üçün Milli Təşkilatını (NOW - National Organization for Women) lesbiyanların hüquqları uğrunda mübarizədən çəkindirməyə çalışmış, onları "lavanda təhlükəsi" adlandıraraq qadınları, üzləşdikləri vacib problemlərdən yayındırmaqda, feminizmə qarşı mənfi münasibətlərin səbəbkarı olmaqda günahlandırmışdı. Lakin Del Martin, Fillis Layon və Ritu Mey Braun kimi lesbiyan fəallar təşkilatı sıralarında islahat aparmağa vadar etmişdilər. Və 1971-ci ildə Qadınlar Üçün Milli Təşkilat qadınların seksual oriyentasiya da daxil olmaqla tam özünüifadə hüquqlarını təsdiqləyən qətmanə qəbul etmişdi.

Bu gün feminizmin ən böyük problemi - qadınların artıq istədikləri bərabərliyi əldə etdiklərinə inanan milleniallar nəslidir.

**Doğrudur, bütün fəalların zəhməti nəticəsində böyük uğurlar əldə olunub. Qadınlar ipoteka kreditləri ala, biznesi inkişaf etdirmək üçün kredit götürə bilirlər. Ancaq kütləvi mədəniyyətin növlərində - populyar mahnılarda, kliplərdə qadına qarşı zorakılığın adiləşməsi müşahidə olunur, bütün dünyada ən az məvacibi olan və ən çox istismar olunan işçilər arasında qadınlar üstünlük təşkil edir, siyasi hakimiyyətdə qadınların sayı azdır. Odur ki, feministlərin növbəti nəslinin üzərinə hələ xeyli iş düşür.**

**Amma daha bizimki kimi yox...**

**Eminquey**

## Lüt fotosu, xanımı ilə məhkəməsi, saat tələbi ilə gündəm olan aktyor: Ona görə serial yayımlanmadı:

**Türkiyəli aktyor, izlənmə rekordları qıran "Yasak Elma" serialının baş rolu ifa edən Berk Oktay Azərbaycan izləyicilərinə çoxdan tanışdır. Onun bir neçə serialda uğurlu rolları tamaşaçıların yadındadır. Buna baxmayaraq, onun şəxsi həyatında baş verən hadisələr Berk Oktay adını bir müddət gündəmdə saxladı və daha geniş auditoriyaya tanıtdı.**



Aktyorun keçmiş həyat yoldaşı Merve Şarapçıoğlu onun qeyri-etik videolarını yaydı. Hamam vannasında çimən aktyorun özündən xəbərsiz lüt videoları arvadı tərəfindən sosial şəbəkələrdə paylaşıldı. Bu olaydan sonra cütlük qalmaqallı şəkildə yollarını ayırdı. Daha sonra Berk onu məhkəməyə verdi. Məhkəmə B.Oktay haqlı hesab edərək Merve Şarapçıoğlunu müəyyən müddətə həbs etdi.

Onların boşanmasına baxmayaraq aralarındakı gərginlik davam etməyə başladı. Merve Berklə yaşadığı zaman bir yerdə alınan bütün bahalı əşyaları, o cümlədən toyda ona taxılan qızılları satdığı deyildi. Qalmaqallı növbəti məhkəmə prosesində isə Berk Mervenin ailəsinin ona toyda hədiyyə etdiyi bahalı qol saatını geri tələb etdi. Sözügedən əşya "Rolex" markasına məxsus olub, qiyməti isə 60 min lirədir (təxminən 14 min manat).

"Yasak Elma" serialının çəkiliş meydançasında növbəti dəfə işlər dayandırılıb.

Bu dəfə də yaradıcı heyətin üzvlərindən koronavirusa yoluxanlar var. Adalet.az Posta.com-a istinadən xəbər verir ki, istedadlı aktyor Berk ikinci dəfə koronovirusa yoluxduguna görə "Yasak elma" serialının yeni bölümü bu həftə yayımlanmayıb.

Eyni zamanda ekran işinin rejissoru Ece Erdek Koçoğlunun koronavirus testi də pozitiv çıxıb.

Qeyd edək ki, məşhur aktyor hazırda məsləkdaşı Yıldız Çağrı Atiksoyla sevgilidir və evlənəcəkləri bildirilir.

**Əntiqə Rəşid**

## Ronaldo və Messi yenə ÇL-dən kənarda qaldı



**Kriştiano Ronaldo və Lionel Messi Çempionlar Liqasında çıxışlarını erkən başa vurublar.**

Qol.az xəbər verir ki, ötən il olduğu kimi, bu mövsümdə də hər iki futbolçunun komandası ÇL-in 1/8 finalında mübarizəni dayandırıblar. Ronaldonun komandası "Mançester Yunayted" "Atletiko"ya, Messinin klubu PSJ isə Madridin digər təmsilçisi "Real"a uduzub. Ötən il eyni hallar bu iki futbolçu "Yuventus" və "Barselona"da oynayanda da baş vermişdi.

Bunadək isə son dəfə 2004/05 mövsümündə Ronaldo və Messinin komandaları 1/4 finala yüksələ bilməmişdilər.

## "Real" hücumçusu ilə müqaviləni uzadır



**"Real" futbolçusu Vinisius Juniorla müqaviləni uzadacaq.**

Qol.az xəbər verir ki, braziliyalı hücumçu ilə uzunmüddətli sözləşmə imzalanacaq. Tərəflərin bir çox məsələlərdə razılığa gəldikləri bildirilib.

Qeyd edək ki, 2018-ci ildən Madrid klubunda çıxış edən Vinisius Juniorun "Real"la 2024-cü ilin yayınadək müqaviləsi var.

**Elan**

**Kürdəmir rayon Aqrar islahat komissiyasının 24.07.2004 tarixli 01 saylı qərarı ilə mərhum Ağayev Səmid Fəttah oğlunun adına verilmiş AO57045 - plan - ölçü sənədləri itdiyi üçün etibarsız hesab edilir.**

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 67
Çapa imzalanmışdır: 16.03.2022